Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 55 (7782) BAZAR, 11 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

## Prezident İlham Əliyev Azərbaycan jurnalistlərini təbrik etdi

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Mətbuat Şurasının VII qurultayının öz işinə başlaması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyi əldə edildikdən sonra ölkəmizdə azad, demokratik mətbuatın təşəkkülü üçün geniş imkanlar açılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini nizamlayan mükəmməl qanunvericilik bazası formalaşdırılmış, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, mətbuat-hakimiyyət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur.

Azərbaycanda demokratikləşmə prosesinin təzahürü olaraq 2003-cü ildə jurnalistlərin I qurultayında mətbuatın özünütənzimləmə funksiyasını yerinə yetirən Mətbuat Şurasının yaradılması media ilə dövlət və cəmiyyət arasında münasibətlərdə keçid dövrünün başa çatması və yeni keyfiyyət mərhələsinin başlanması kimi qiymətləndirilə bilər. Ötən 15 ildə Mətbuat Şurası ölkədə söz və məlumat azadlığının inkişafı, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi və müstəqilliyinin gücləndirilməsi ilə bağlı səmərəli təkliflərlə çıxış etmiş, dövlət orqanları və vətəndaşlarla mətbuat arasında münasibətlərin tənzimlənməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, peşəkarlığının artırılması, mediada neqativ halların aradan qaldırılması sahəsində ciddi səylər göstərmişdir. Bu gün ardıcıl və məqsədyönlü fəaliyyəti ilə seçilən Mətbuat Şurası Azərbaycanın aparıcı ictimai təşkilatları sırasında özünə layiqli yer tutmuş və cəmiyyətdə böyük nüfuz qazanmışdır. Jurnalistlərin mütləq əksəriyyətinin Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirməsi bunu əyani şəkildə təsdiq edir.

Hazırda güclü iqtisadi və maliyyə potensialına malik Azərbaycan Respublikasında hər bir sahənin, o cümlədən də kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət dəstəyi həyata keçirilir. Təsadüfi deyil ki, dünya miqyasında milli informasiya resurslarımızın çəkisi getdikcə artır, rəqabət qabiliyyəti yüksəlir. Düşünürəm ki, qlobal şəbəkənin genişləndiyi və transmilli medianın ayrı-ayrı ölkələrin daxili həyatına, beynəlxalq nüfuzuna ciddi təsir göstərdiyi müasir dövrdə Azərbaycan kütləvi informasiya vasitələri daha fəal və prinsipial olmalı, yüksək peşəkarlıq nümayiş etdirərək milli maraqlarımızı hər şeydən uca tutmalı, cəmiyyətimizin tərəqqisi naminə öz qüvvə və bacarıqlarını əsirgəməməlidir.

İnanıram ki, VII qurultay Azərbaycan mətbuatının hazırkı vəziyyəti və perspektivi ilə bağlı səmərəli müzakirələrin keçirildiyi mühüm platformaya çevriləcək və milli jurnalistikamızın gələcək inkişafına dair əhəmiyyətli qərarlar qəbul edəcəkdir.

Bu yolda hər birinizə, bütün Azərbaycan jurnalistlərinə möhkəm cansağlığı və qurultayın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2018-ci il*

## Azərbaycanda jurnalistika ilə hakimiyyət arasında gözəl tərəfdaşlıq mühiti yaranıb

Martın 10-da Bakıda Azərbaycan jurnalistlərinin VII qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

İştirakçılar ötən qurultaydan keçən dövr ərzində dünyasını dəyişmiş jurnalistlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Mətbuat Şurasının sədri Əflatun Amaşov qurultayı açaraq bildirdi ki, məclisdə iştirak etmək üçün 166 üzv təşkilatdan 241 nümayəndə qeydiyyatdan keçib. Yetərsay var və qurultayımız işə başlaya bilər.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlət başçısı İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxudu *(Təbrik məktubu qəzetin bugünkü nömrəsində dərc olunur).*

Sonra qurultayın sədarəti, katibliyi, say və mandat komissiyalarının yaradılması üçün təkliflər oxundu, səsə qoyularaq qəbul edildi.

Qurultayın gündəliyi səsə qoyularaq qəbul edildi.

Qurultay "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin sədrliyi ilə işini davam etdirdi.

Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan jurnalistlərinin VI qurultayından ötən dövrdə görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış etdi. Hesabat dövründə əldə olunan nailiyyətlər, mövcud problemlər və onların həlli yollarından danışan MŞ-nin sədri bildirdi ki, Azərbaycan jurnalistlərinin VI qurultayından bugünədək Şuraya ümumilikdə 3145 şikayət daxil olub. İlkin mərhələdə baxılan 3145 məsələdən 2213-ü katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 932 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinmədiyindən məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün Şuranın müvafiq komissiyalarına göndərilib. 932 şikayətin 711-i şikayətlər üzrə komissiyada, 159-u reket jurnalistikaya qarşı mübarizə komissiyasında, 14-ü mətbuat ilə dövlət qurumları arasında problemlərin həlli komissiyasında, 48-i sosial-iqtisadi komissiyada araşdırılıb. Şikayətlər üzrə komissiyada baxılan 711 məsələdən 584-ü komissiya səviyyəsində həllini tapıb, digər 127 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün idarə heyətinə təqdim edilib. Reket jurnalistikaya qarşı mübarizə komissiyası tərəfindən araşdırılan 159 şikayətdən 104-ü barədə təqdimat hazırlanaraq yekun qərar qəbulu üçün idarə heyətinə göndərilib. İdarə heyəti hesabat dövründə şikayətlər üzrə komissiyanın 127, reket jurnalistikaya qarşı mübarizə komissiyasının 104 rəyinə əsaslanaraq, ümumiyyətlə, 231 qərar çıxarıb. Qurultaylararası dövrdə MŞ İdarə Heyətinin 35, şikayətlər üzrə komissiyanın 76, reket jurnalistikaya qarşı mübarizə komissiyasının 29, mətbuat ilə dövlət qurumları arasında problemlərin həlli komissiyasının 18 iclası keçirilib. Bundan başqa, müxtəlif məsələlərlə bağlı Şuranın sosial komissiyasının 11, hüquq, iqtisadiyyat, dil, təhsil, bölgə mətbuatının inkişafı komissiyalarının hər birinin 9 iclası keçirilib.

***Ardı 2-ci səh.***

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2018-ci il*

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2018-ci il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2018-ci il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2018-ci il*

## Azərbaycan dünyada yüksək nüfuza malik ölkə kimi qəbul olunur



Azərbaycanın beynəlxalq subyektin fəal və qəbul edilən üzvü kimi beynəlxalq mövqelərini ildən-ilə gücləndirməsi ölkəmizin son onillikdə qazandığı mühüm nailiyyətlərdən biridir. Respublikamızın həyata keçirdiyi daxili və xarici siyasət milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə təmin edir. Eyni zamanda bu siyasət müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya verərək özünü uğurla doğruldur.

### Erməni yalanlarına vurulan sarsıdıcı zərbə

Təbii ki, bütün bunlar dünyanın ölkəmizi daha yaxından tanıması, Azərbaycan həqiqətlərinin qəbul edilməsi, o cümlədən Dağlıq Qarabağ danışıqlarında respublikamızın üstün mövqeyinin təmin olunması baxımından vacib amildir. Çünki bu gün Azərbaycanın xarici siyasətinin başlıca məqsədlərindən biri ərazi bütövlüyümüzün bərpa olunmasına xidmət edən beynəlxalq fəaliyyətin həyata keçirilməsidir. Ona görə Ermənistanın dünyada işğalçı kimi tanınması, Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq ictimaiyyətə dərindən çatdırılması ölkəmizin xarici siyasətinin həyata keçirilməsində iştirak edən bütün subyektlərin vəzifə və tapşırıqları sırasında prioritet yer tutur.

Xarici siyasətdə hücum strategiyasını müəyyən edən ölkə rəhbərliyi həm də erməni yalanlarının ifşa edilməsi və dünya miqyasında yayılması istiqamətində Azərbaycan diplomatları qarşısında ciddi tapşırıqlar qoyub. Bu istiqamətdə atılan təsirli addımların nəticəsidir ki, Ermənistanın hərbi təcavüzü şəraitində Azərbaycanın ümumi inkişafı və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarıb. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınır və yalanları ifşa olunur. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə, Azərbaycan həqiqətləri siyasi-ictimai dairələrə sirayət edir.

Son olaraq Xocalı soyqırımının 26-cı ildönümündə, o cümlədən Sumqayıt hadisələri ilə bağlı dünyanın ayrı-ayrı ölkələrində həyata keçirilən tədbirlər göstərdi ki, erməni yalanlarının qarşısı sürətlə alınır. Xüsusən ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupun həmsədrləri - Pensilvaniya ştatından konqresmen Bill Şuster (respublikaçı) və Tennessidən Stiv Kohenin (demokrat) 20 Yanvar faciəsinin 28-ci və Xocalı qətliamının 26-cı ildönümü ilə bağlı ayrı-ayrılıqda bəyanatlarla çıxış etmələri, o cümlədən digər demokrat konqresmen, Nyu Cersi ştatını təmsil edən Donald Peynin bəyanatı göstərdi ki, artıq erməni yalanlarına heç kim inanmaq istəmir.

### Müstəqil siyasətin uğurları

Beynəlxalq münasibətlər sistemində baş qaldıran təbəddülatlar, dünyanı cənginə alan maliyyə-iqtisadi böhran, enerji təhlükəsizliyi məsələlərinin getdikcə daha aktual şəkil alması, sivilizasiyalararası dialoqun təhdidi məlum dövlətləri həyata keçirdikləri siyasətə yenidən baxmağa vadar edir. Mövcud reallıqlar göstərir ki, bir sıra dövlətlər dünyada nəyin baş verib-verməməsindən asılı olmayaraq, ümumiyyətlə, nəinki müstəqil xarici, hətta daxili siyasət belə həyata keçirə bilməkdən məhrumdurlar. Həmin ölkələr öz siyasətlərini kənar təsirlərlə uzlaşdırmaq, müəyyən diktələri qəbul etmək məcburiyyətindədirlər. Onların siyasi hakimiyyətlərinin həm beynəlxalq məsələlərlə bağlı baxışları, həm də daxili həyata hesablanmış addımları mütləq vassallığında olduqları dövlətlərlə razılaşdırılır. Xüsusən Ermənistanın beynəlxalq əməkdaşlığı kənar dövlətlərlə, hətta xaricdəki diaspor təşkilatları ilə razılaşdırmadan həyata keçirməsinin mümkünsüzlüyü, daxili iqtisadiyyatın aparıcı sahələrinin, energetika sektorunun tamamilə xarici investorlardan asılı vəziyyətə düşməsi bu ölkənin müstəqil siyasətinin olmamasını təsdiqləyən faktorlardır.

***Ardı 2-ci səh.***

## Naftalana müalicəyə və istirahətə gələnlərin sayı 40 faiz artıb

Aparılan iqtisadi islahatlar, qeyri-neft sektorunda qazanılan uğurlar ölkəmizdə turizmin inkişafına da müsbət təsir göstərmişdir. Bunu ölkəmizə gələn turistlərin sayında da görmək olar.

İndi yerli və xarici turistlər Azərbaycanda keçirdikləri müalicə və istirahətdən məmnun qaldıqlarını söyləyirlər. Belə məkanlar isə respublikamızda çoxdur. Onlardan biri Naftalan kurort şəhəridir. Hər il bu şəfa ocağına gələn minlərlə insan burada sağlamlığını bərpa edir. Dünyada analoqu olmayan naftalan nefti ilə müalicənin əhəmiyyətini nəzərə alan dövlət başçısı da Naftalanın beynəlxalq səviyyəli sanatoriya-kurort mərkəzinə çevrilməsi üçün bir neçə sərəncam imzalamışdır.

Ölkə rəhbərinin Naftalan şəhərinə səfərləri zamanı verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq son illər burada turizmin inkişafı istiqamətində çoxlu sayda işlər həyata keçirilmişdir. İstifadəyə verilən 5 ulduzlu hotellər, yüksək səviyyəli xidmətlər, eləcə də şəhərin turizm imkanlarının təbliği yerli və xarici turistlərin sayına müsbət təsir göstərmişdir. Elə bunun nəticəsidir ki, keçən il şəfa tapmaq və istirahət etmək məqsədilə Naftalana üz tutan yerli və xarici turistlərin sayı əvvəlki ilə nisbətən 40 faiz artmışdır. Bu dövrdə şəhərin turizm obyektlərində 35 mindən artıq turist qeydə alınmışdır. Bunun da 7309 nəfəri 62 ölkədən gələn xarici turistlərdir. Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə və Ukraynadan gələn turistlər çoxluq təşkil etmişdir.



Asiya qitəsindən - Yaponiya, Cənubi Koreya, Çin, Hindistan, Kamboca, Yeni Zelandiya, Filippin, eləcə də Amerika ölkələrindən Kanada, Meksika, Braziliya, Afrika respublikalarından, hətta uzaq Avstraliyadan gələn turistlər də Naftalandan məmnunluqla ayrılmışlar.

Ümumiyyətlə, son illərin statistikası onu göstərir ki, Naftalan nefti ilə müalicə olunmaq üçün gələnlərin sayı ildən-ilə artır. Hazırda şəhərdə fəaliyyət göstərən 3 və 5 ulduzlu 10 sanatoriya, istirahət və müalicə mərkəzi fəaliyyət göstərir. Bu obyektlərdə gün ərzində 2200 qonağı qarşılayıb, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür. Ehtiyac nəzərə alınaraq şəhərdə yeni sağlamlıq ocaqlarının tikintisi də aparılır. Hazırda yeni xəstəxananın tikintisində işlər sürətlə gedir. Ümumi sahəsi 1,2 hektar, tikinti sahəsi 1300 kvadratmetr olan 65 çarpayılıq xəstəxanada şüa-diaqnostika, cərrahiyyə, travmatologiya, terapiya, reanimasiya, mama-ginekologiya, pediatriya, poliklinika və təcili yardım şöbələri, eləcə də stomatoloji kabinet fəaliyyət göstərəcəkdir. Xəstəxananın tikintisində 100 nəfərədək işçi çalışır.

Son illər sahibkarlığın inkişafına yaradılan şəraitdən bəhrələnən iş adamları da bir neçə istirahət mərkəzi inşa etdirmişlər. Həmin mərkəzlərdə də hər il yüzlərlə turist istirahət edib müalicə olunur. Hazırda belə sahibkarlardan biri Naftalan müalicəsinə olan marağı nəzərə alaraq ümumi sahəsi 300 kvadratmetr olan yeni ikimərtəbəli müalicə mərkəzi inşa etdirir.

***Ardı 2-ci səh.***

## Sabunçu rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabunçu rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2018-ci il*

## ATƏT Parlament Assambleyasının sədri Azərbaycana rəsmi səfərə gəlib



ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyəti martın 10-da Azərbaycana rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli və xanımı Eka Tsereteli Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Bahar Muradova qarşılayıb.

# Azərbaycanda jurnalistika ilə hakimiyyət arasında gözəl tərəfdaşlıq mühiti yaranıb






*Əvvəli 1-ci səh.*

Şuranın apelyasiya qrupu 5, Ahıl Jurnalistlər Məclisi 39 dəfə toplanıb.

Əflatun Amaşov deyib ki, bu gün Azərbaycanda mediaya sistemli dövlət qayğısı mövcuddur. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu uğurla fəaliyyət göstərməkdədir. Qurum KİV-in layihələrini maliyyələşdirməklə onların cəmiyyət üçün faydalı təşəbbüslərinə yaşıl işıq yandırır. Ancaq müasir dövr tələb edir ki, mediamız daha da güclənsin, reklamdan, satışdan əldə etdiyi gəliri çoxaltsın. Qarşımızda dayanan növbəti məsələlərdən biri də internet üzərindən yayımlanan media vasitələrinin səmərəliliyinin artırılmasıdır. Bu sahədəki qanunvericilik bazasında xeyli təkmilləşmələr aparılıb. Belə media vasitələri hüquqi münasibətlər sistemində öz yerlərini tuta biliblər. Ancaq onların artan rolundan cəmiyyətimizin inkişafı naminə istifadə etməliyik.

Sonra MŞ-nin nəzarət-təftiş və mandat komissiyalarının hesabatları dinlənilib. Hesabatlar, ümumilikdə, mətbuatın ümumi problemlərini və təşkilati məsələləri əhatə edib.

Sonra məruzələr ətrafında müzakirələr aparılıb.

Qurultayda Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Milli Məclisin deputatı Aqil Abbas, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, BDU-nun Jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, MŞ İdarə Heyətinin üzvü, Orta Asiya və Cənubi Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət, "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov və digərlərinin çıxışları dinlənilib. Çıxışlarda Azərbaycanda mətbuatın inkişafı, həm yazılı, həm də elektron medianın maddi-texniki bazasının, jurnalistlərin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışılıb. Natiqlər Mətbuat Şurasının hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qurultayda çıxış edib. Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu demokratik media ənənələrinin Azərbaycanda uğurla inkişaf etdiyini bildirən Əli Həsənov deyib ki, bu gün burada səsvermə keçirildi, özünüz hər şeyi gördünüz. Kimin nə deməsindən asılı olmayaraq, bu gün Azərbaycan mediasından kənara atılmış müəyyən nümayəndələr bu qurultay, burada seçiləcək yeni heyət, sizin jurnalist fəaliyyətiniz haqqında da mənfi rəy formalaşdırmağa çalışacaqlar. Bundan qorxmayın, buna qeyri-adi hal kimi baxmayın. Nə qədər ki cəmiyyət, insanlar, həyat var, opponentlər də olacaq. Sadəcə olaraq onlara opponent kimi baxın, çalışın onların sizə hansı formada öz fikirlərini, nifrətlərini ifadə etmələrindən asılı olmayaraq Azərbaycan xalqına, jurnalistinə uyğun bir formada cavab verin və öz haqqınızı qoruyun. Kənar təsirlərə məruz qalmayın.

Prezidentin köməkçisi deyib ki, ölkədən qaçan bəzi şəxslər bu gün Azərbaycanın rəmzlərini təhqir edirlər. Həmin şəxslərə olduqları xarici ölkələrin pasportları verilərək Azərbaycana qarşı təlimatlandırılırlar. Xarici ölkələrin müvafiq orqanları qarşısında öhdəlikləri olanlar Azərbaycan dövlətinə qarşı çirkab yağdırırlar. Azərbaycan mətbuatında isə bir susqunluq var. Buna jurnalistlər xüsusi diqqət yetirməlidirlər. Mətbuat milli dəyərlərimizi, milli rəmzlərimizi müdafiə etməlidir. Azərbaycanı təhqir edən insanlardan valideynləri də imtina ediblər. Həmin adamlar "Facebook"un imkanlarından istifadə edərək Azərbaycana qarşı irinli çirkab yağdırırlar. Həmin adamlara qarşı müqaviməti ilk olaraq media göstərməlidir.

Azərbaycanda jurnalistika ilə hakimiyyət arasında gözəl tərəfdaşlıq mühitinin yarandığını vurğulayan Əli Həsənov bildirib: "Bunun nəyi pisdir? Əgər Azərbaycan dövləti vergi ödəyicilərinin və Azərbaycanın milli sərvətlərinin verdiyi imkanlardan onun yaradıcı insanlarının, akademikinin, sənət adamlarının, Azərbaycan cəmiyyətində yaxşı nümunələr formalaşdıran jurnalistikanın və digər kateqoriyadan olan insanların maliyyələşməsi, maddi-mənəvi tələbatının ödənilməsi üçün istifadə edirsə, bunun nəyi pisdir? Nəyə görə öz dövlətinin milli sərvətindən pay almaq qəbahət hesab olunmalıdır? Bu məsələdə opponentlik etmək istəyənlərə qarşı siz öz münasibətinizi sərgiləyə bilərsiniz. Nəyə görə öz dövlətindən, milli sərvətindən aldığın pay qəbahət sayılmalıdır, amma antiazərbaycan fəaliyyəti, sizi dövlətinizə, millətinizə qarşı qoymaq cəhdləri ilə Azərbaycana yönələn xarici qrantlardan maliyyələşmək və yaxud da bəhrələnmək normal hal hesab olunmalıdır? Baxın, bu gün sizi ittiham edənlər özləri hansı mənbədən maliyyələşirlər".

Mətbuat Şurasının reket nəşrlərlə bağlı "qara siyahı" hazırladığını xatırladan Ə.Həsənov reket nəşrlərdə çalışanları doğru yola dəvət edərək deyib: "Olan və olmayan kompromatları toplayıb insanları şantaj etmək yaxşı hal deyil. Bu işin axırı yoxdur. Siz özünüzü təhdid etdiyiniz insanların yerinə qoyun. Mən o insanlarla mübarizə aparmıram, onları doğru yola çağırıram. Mətbuat Şurası qəbul etdiyi etik normaları müdafiə etməlidir. Hesab edirəm ki, "Mətbuat Şurası haqqında" qanun qəbul edilməsinin zamanı çatıb".

Prezidentin köməkçisi partiyaların dövlətdən dəstək almasına etirazın da düzgün olmadığını qeyd edərək deyib ki, təminatı olan siyasi partiyaların parlamentdə təmsil olunaraq dövlətdən dəstək alan partiyaları ittiham etməyə haqları yoxdur. Mən elə buradan müxalifət partiyalarına üzümü tuturam. O müxalifət partiyalarına ki, Azərbaycanın qanunları çərçivəsində bu gün parlamentə seçiliblər, dövlət büdcəsindən öz qanuni maliyyələşmə haqlarını alıblar. Bunun nəyi pisdir? Amma o partiyalar ki maliyyə mənbəyi bu gün heç kimə bəlli deyil və sizin gözünüz qarşısında da hamıdan yaxşı yaşayırlar, hamıdan yaxşı təmin olunublar, övladları, özləri dövlətin daxilində və xaricində kifayət qədər yüksək təminatlı həyat sürürlər, onların sizi tənqid etməyə, ittiham etməyə haqları yoxdur. Onların haqsız olduğunu cəmiyyətə siz jurnalistlər çatdırmalısınız.

Sonra qurultayda Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin tərkibinin genişləndirilməsi məsələsi müzakirə olunub.

Mətbuat Şurasının Nizamnaməsində bu məsələ ilə bağlı təklif səsə qoyularaq qəbul edilib. Dəyişiklik nəticəsində İdarə Heyətinin tərkibi genişlənib, üzvlərin sayı 17-dən 23-ə çatıb. Şuranın 11 jurnalistdən, 7 ictimaiyyət nümayəndəsindən və 5 internet informasiya resursu təmsilçisindən ibarət İdarə Heyəti formalaşıb. Bundan başqa, İdarə Heyətinin 2 jurnalistdən, 2 ictimaiyyət nümayəndəsindən və 2 internet informasiya resursu təmsilçisindən ibarət ehtiyat üzvləri də seçilib.

Azərbaycan jurnalistlərinin VII qurultayında səsvermə nəticəsində Əflatun Amaşov yenidən Mətbuat Şurasının sədri seçilib.

Sonda qurultayın qətnaməsi qəbul olunub. Bununla da Azərbaycan jurnalistlərinin VII qurultayı başa çatıb.

# Azərbaycan dünyada yüksək nüfuza malik ölkə kimi qəbul olunur

*Əvvəli 1-ci səh.*

Məsələyə bu kontekstdən yanaşsaq, əminliklə deyə bilərik ki, regionun lider dövləti olan Azərbaycan həm də tam müstəqil siyasət yeridən, öz taleyini özü müəyyənləşdirən dövlətdir. Digər tərəfdən, Şərq və Qərbin qovuşuğunda yerləşən Azərbaycan həm Avropa, həm də Asiya dövlətləri və təşkilatları ilə müstəqil, ən əsası, milli maraqlarımıza xidmət göstərən əməkdaşlıq edir. Azərbaycan həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Hər iki təşkilat da Azərbaycan torpaqlarının işğalını pisləyən və Ermənistan qoşunlarının respublikamızın ərazilərindən çıxarılmasını tələb edən müvafiq sənədlər qəbul ediblər.

Bu, doğrudan da nadir bir vəziyyətdir. Çünki dünyada hər iki təşkilata üzv olan ölkələrin sayı o qədər də çox deyil və hər iki təşkilatda rəğbət, dəstək qazanmaq, əlbəttə ki, bizim böyük uğurumuzdur. Biz bunu səmimi siyasətimizə görə qazanmışıq. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Ölkəmiz heç vaxt kiminsə xoşuna gəlmək üçün hər hansısa addım atmır və daim prinsipial mövqe nümayiş etdirir. Azərbaycan dövləti xarici siyasətdə elan etdiyi prioritetlərə uyğun olaraq dünyanın ayrı-ayrı subyektləri ilə özünün siyasi və iqtisadi əməkdaşlığını tamamilə bərabərhüquqlu tərəfdaşlıq formatında qurur. Nəinki qurur, o cümlədən inkişaf etdirir, keyfiyyətcə yeni mərhələyə qaldırır. Bu münasibətlər bəzi ölkələrlə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkəmizin BMT, Avropa Şurası, İƏT, NATO və ATƏT kimi beynəlxalq təşkilatlarla sıx qarşılıqlı münasibətləri var. Bu qurumlarla qarşılıqlı əməkdaşlıq münasibətləri müxtəlif sahələri əhatə edir. Bu əlaqələr və qarşılıqlı faydalı münasibətlər həm də regionda sabitliyin və sülhün təmin olunmasına töhfə verir, əmin-amanlığın, ərazi toxunulmazlığının qorunması istiqamətində prinsipial mövqe nümayiş etdirən Azərbaycanın dünya birliyinə təsir imkanları daha da genişlənir. Azərbaycan Ordusunun bölmələri ayrı-ayrı ölkələrdə sülhün və əmin-amanlığın təmin olunmasında iştirak edir, beynəlxalq terrorçuluqla mübarizədə sözlərini deyirlər.

## Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə həyata keçirilə bilməz

Respublikamız həm də Cənubi Qafqaz regionunda sabitləşdirici rol oynayan dövlət, Avropa ilə Asiyanı daha sıx bağlayan nəhəng iqtisadi və enerji layihələrin təşəbbüsçüsü və təşkilatçısı kimi çox böyük nüfuz, etibar qazanıb. Ölkəmizin qətiyyətli mövqeyi Cənubi Qafqazda hər hansı taleyüklü məsələnin həllində, transmilli layihənin reallaşmasında Azərbaycanın iştirakı və razılığı olmadan konkret nəticəyə gəlinməsini mümkünsüz edir.

İndiyədək Cənubi Qafqazı əhatə edən hər bir layihənin taleyi Azərbaycanın bölgədəki əvəzolunmaz yerindən və rolundan xəbər verir. Bunu xüsusən tək Azərbaycanın deyil, Orta Asiya dövlətlərinin də karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaran enerji layihələrinin həyata keçirilməsi göstərir. Zaman Azərbaycanın bu təşəbbüslərinin nə qədər düzgün olduğunu təsdiq edir. Çünki bu gün dünya siyasətinin ən aktual məsələlərindən biri enerji təhlükəsizliyidir.

Təsadüfi deyil ki, çağdaş dünyamızda baş verən müharibələr, ekoloji və humanitar fəlakətlər, enerji daşıyıcılarının nəqli sahəsində problemlərin və mübahisələrin yaşanması ayrı-ayrı dövlətlərdən enerji təhlükəsizliyi üçün daha ciddi düşünməyi, xüsusən alternativ nəql sistemlərinin yaradılması istiqamətində əməli hərəkətə keçməyi tələb edir. Bu baxımdan zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycanın neft-qaz marşrutlarının genişləndirilməsi ilə bağlı yeni təşəbbüsləri də alternativ nəql imkanlarının axtarışında olan Avropanın diqqətini cəlb edir. Digər tərəfdən, Azərbaycan rəhbərliyi neft və qazın nəqli marşrutlarının şaxələndirilməsi ilə bağlı səslənən təklifləri hər zaman dəstəkləyib, xüsusən bu sahədə müxtəlif layihələr üzərində baş sındıran Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfələr verməyə hazır olduğunu bəyan edib. Ona görə bir çox ölkələrin enerji təhlükəsizliyinin təminatına böyük töhfələr verən respublikamız dünya birliyində etibarlı və strateji tərəfdaş kimi öz yerini möhkəmləndirib.

Son illər bu istiqamətdə baş verən və gələcəkdə Avropanın enerji xəritəsinə ciddi korrektələr edəcək hadisələr Azərbaycanın enerji siyasətinin böyük uğurları olmaqla yanaşı, həm də onu təsdiq edir ki, ölkəmizin iştirakı olmadan bölgədə hər hansı transmilli layihə həyata keçirilə bilməz. Bu, təkcə coğrafi mövqeyə görə deyil, ən çox beynəlxalq birliyin hörmətli üzvü olduğumuza görədir.

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasının başa çatdırılmasından sonra "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsi enerji məsələlərində Azərbaycanın mühüm siyasi-diplomatik uğurudur. Bu uğur Azərbaycanın enerji təhlükəsizliyində söz sahibinə çevrilməsi ilə yanaşı, hər bir məsələdə qətiyyətli mövqeyindən, əməkdaşlıq əlaqələrində etibarlı tərəfdaş olmasından və beynəlxalq birlikdə yüksək nüfuz sahibinə çevrilməsindən irəli gəlir. Layihənin icrası isə vaxtından tez başa çatdırılacaq. Bununla da Azərbaycan Türkiyəyə və ondan sonra Avropaya daha böyük həcmdə təbii qazını ixrac edəcək. Türkiyə və Avropa ölkələri yeni alternativ mənbəyə çıxış əldə edəcəklər. Ümumiyyətlə, bütün tərəflər bu layihənin icrasından ancaq fayda görəcəklər. Bu layihənin əsas investoru isə Azərbaycandır. Beləliklə, bu layihə imkan verəcək ki, Azərbaycan zəngin qaz resurslarını bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdırsın.

Beynəlxalq miqyasda hər bir ölkənin inkişaf səviyyəsini, nüfuzunu, dünyada qazandığı etimadı və digər bu kimi əsas xüsusiyyətlərini xarakterizə edən əsas cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Təbii ki, hər ölkə dünya birliyinin bir subyekti olaraq həm özünün milli maraqlarına cavab verən, həm də müstəqil siyasət həyata keçirmək istəyir. Bu mənada yuxarıda qeyd olunanlar təsdiq edir ki, Azərbaycan tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yeridir. Və bu siyasətin uğurlu nəticələrindən biri Azərbaycanın beynəlxalq müsbət imicinin sürətlə yüksəlməsidir. Ona görə Azərbaycan indi dünyada yüksək nüfuza malik ölkə kimi qəbul olunur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Naftalana müalicəyə və istirahətə gələnlərin sayı 40 faiz artıb

*Əvvəli 1-ci səh.*

Naftalan inkişaf etdikcə bu şəhərdə yaşayan insanların həyat şəraiti də yaxşılaşır. İstifadəyə verilən hər bir sağlamlıq mərkəzi sakinlərin işlə təminatını qaydaya salır. Ölkə rəhbərinin sahibkarlığın inkişafı, sərmayələrin cəlb edilməsi və yeni iş yerlərinin açılması ilə bağlı verdiyi tapşırıqların icrası ilə əlaqədar başlanan işlər uğurla davam etdirilir. Hazırda yeni avtovağzal-hotel kompleksinin tikintisində 30 nəfər çalışır. İnşaat işləri yekunlaşdıqdan sonra burada 50 nəfərədək sakin daimi işlə təmin ediləcək. Yenidən qurulan 10 mərtəbəli "Naftalan" mehmanxanası fəaliyyətə başlayanda 50 nəfərin işlə təminatı mümkün olacaq.



Şəhər sakinlərinə, xarici turistlərə göstərilən iaşə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə ən müasir obyektlərin inşası da sürətlə davam etdirilir. Artıq belə obyektlərdən biri yaxın aylarda istifadəyə veriləcək. Ümumiyyətlə, şəhər əhalisinin iş təminatı daim şəhər icra hakimiyyətinin diqqət mərkəzindədir. Təkcə keçən il dövlət qurumları tərəfindən verilən vakant yerlər əsasında 174 nəfər daimi işlə təmin edilmişdir.

Onu da qeyd edək ki, Naftalanın şəhər büdcəsi yerli mənbələrdən daxil olan gəlirlər hesabına formalaşır və hər il büdcə gəlirləri artır. Bunun da sayəsində şəhərdə infrastruktur yenilənir. Şəhər sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində bir neçə il əvvəl başlanmış layihələrin icrası uğurla davam etdirilir. Şəhərdə istilik, qaz və su-kanalizasiya sisteminin yaxşılaşdırılması sahəsində işlər tam başa çatdırılmışdır. Elektrik təchizatının yaxşılaşdırılması istiqamətində başlanan işlər də başa çatmaq üzrədir. Aparılan yenidənqurma işləri çərçivəsində vətəndaşların kommunal sahədə mövcud olan bir sıra problemləri öz həllini tapmaqdadır. Yaşıllaşdırılma istiqamətində də işlər davam etdirilir. Son bir ildə küçələrdə, çoxmənzilli yaşayış binalarının qarşısında salınan mini istirahət parklarında və piyada yollarının kənarlarında 2000-ə yaxın Eldar şamı və 1000-dən artıq çinar ağacı əkilmişdir. Yaşıllaşdırma qarşıdakı aylarda da davam etdiriləcəkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Bakı Şəhər Baş Polis İdarəsi paytaxtda keçirilən mitinqlə bağlı məlumat yayıb

Bakı Şəhər Baş Polis İdarəsi martın 10-da paytaxtda keçirilən razılaşdırılmış mitinqlə bağlı məlumat yayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, martın 10-da özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklərin Yasamal rayonundakı idman-sağlamlıq kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqi keçirilib.

Saat 15.00-dan 17.00-dək davam edən toplantıda Azərbaycan Xalq Cəbhəsi, Müsavat və Azərbaycan Xalq partiyalarının, Müsəlman Birliyi, "NİDA" hərəkatlarının, eləcə də müxalifətyönümlü bir sıra qeyri-hökumət və gənclər təşkilatlarının ümumi sayı 1500-dək olan üzvü və təəssübkeşi iştirak edib.

Mitinq zamanı ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulması halları qeydə alınmayıb.











# Ağır atletikanın infrastrukturu inkişaf edir

**İdmanın inkişafında mühüm məsələlərdən biri bu sahədə normal infrastrukturun yaradılmasıdır. Təsadüfi deyil ki, respublikamızda həyata keçirilən idman siyasətinin xarakterik göstəricilərindən biri yeni idman komplekslərinin, məşq zallarının və stadionların istifadəyə verilməsidir. Ötən 15 ildə ölkəmizdə 40-dan artıq olimpiya idman kompleksinin, onlarla digər idman qurğusunun, məşq zallarının, stadionların tikintisi, o cümlədən mövcud infrastrukturun bərpası bunun bariz təcəssümüdür.**










Məsələnin diqqəti çəkən mühüm tərəflərindən biri isə ölkəmizdə idmanın ayrı-ayrı növləri üzrə ixtisaslaşdırılmış idman qurğularının yaradılmasıdır. Bu sırada son illərdə ağır atletika üzrə komplekslərin, məşq zallarının istifadəyə verilməsi olduqca təqdirəlayiq addımlardır. Ağır atletika idmanın spesifik növüdür. Azərbaycanda isə ağır atletikanın tarixi ənənələri var. Düzdür, son illərdə ölkəmizdə bu idman növü ilə bağlı xoşagəlməz hadisələr baş versə də, artıq bütün problemlər arxada qalıb. Azərbaycan Ağır Atletika Federasiyasında başladılan yeni islahatlar, yeni vitse-prezidentlərin seçilməsi, bütün yaş qrupları üzrə milli komandaların cavan, perspektivli məşqçilər korpusuna həvalə olunması ağır atletikanın inkişafında yeni mərhələnin əsasını qoyub. Son illərdə yeniyetmə ağırlıqqaldıranlarımızın Kosovoda və Polşanın Novi Tomısl şəhərində keçirilən Avropa birinciliklərində, İordaniyanın paytaxtı Əmman şəhərində keçirilən İslam Həmrəyliyi İdman Federasiyasının 4-cü ağır atletika çempionatında, Tailandda keçirilən yeniyetmələr arasında 7-ci dünya birinciliyində və digər yarışlarda qazandıqları uğurlar deyilənləri təsdiq edir. Bu nailiyyətlər milli komandamızın perspektivdəki qələbələrindən xəbər verir. Ən əsası isə odur ki, atletlərimizin son illərdə beynəlxalq yarışlardakı çıxışları göstərdi ki, dopinqsiz də uğur qazanmaq mümkündür. Bütün bu məsələlər federasiyanın prezidenti Cahangir Əsgərovun ciddi nəzarətindədir. Onun rəhbərliyi və təşəbbüsü ilə federasiyanın son dövrlərdə gördüyü işlər öz uğurlu nəticəsini verməkdədir.

Bu gün Azərbaycan Ağır Atletika Federasiyasının islahatlar çərçivəsində diqqət yetirdiyi mühüm məsələlərdən biri infrastruktur şəbəkəsinin genişləndirilməsidir. Artıq indiyə kimi xüsusən bölgələrdə bir neçə idman zalı istifadəyə verilib. Martın 5-də - Bədən Tərbiyəsi və İdman Günündə Bakıda və Sumqayıtda növbəti universal ağır atletika komplekslərinin açılışı göstərdi ki, bu proses davamlıdır və AAAF qarşıya qoyduğu vəzifələri layiqincə reallaşdırır, ölkədə həyata keçirilən idman siyasətinə böyük dəstək verir. İlk olaraq Sumqayıtda Heydər Əliyev prospekti, 18-ci məhəllə, 37A ünvanında yerləşən kompleksin açılış mərasimində Azərbaycan Ağır Atletika Federasiyasının birinci vitse-prezidenti Tofiq Heydərov, həmçinin federasiyanın rəyasət heyətinin üzvləri, idmançılar və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Bu kompleksdə eyni anda 50-yə yaxın ağır atlet və digər güc idman növləri - bodibildinq, pauerliftinq, krossfit və başqa idmançıların məşq etmək, yarışlara yüksək səviyyədə hazırlaşmaq imkanı var. Kompleksdə paltardəyişmə otaqları, xüsusi idman geyimləri və vitaminləri stendi, futbol meydançası, digər otaqlar da xidmətə hazırdır.

Daha sonra Bakıdakı kompleksin açılış mərasimi keçirildi. "Zirvə" Beynəlxalq İdman Klubu və Azərbaycan Ağır Atletika Federasiyasının birgə layihəsi olan bu kompleks paytaxtın Azadlıq prospekti, 154 ünvanında fəaliyyət göstərir. Açılış mərasimində AAAF-ın vitse-prezidenti, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, Azərbaycan Ağır Atletika Federasiyasının birinci vitse-prezidenti Tofiq Heydərov iştirak edirdilər. Qırmızı lent kəsildikdən sonra federasiya rəsmiləri burada yaradılan şəraitlə tanış oldular. Məlumat verildi ki, kompleksdə ağır atletika, bodibildinq, pauerliftinq, krossfit və fitneslə məşğul olmaq üçün bütün şərait yaradılıb. Məkanda gün ərzində 500-ə yaxın idmançının peşəkar məşqetmə imkanı var. Kompleks müasir avadanlıqlarla təchiz olunub, hər idman növünə fərdi yanaşma tətbiq edilib. Burada tanınmış idmançılar, müxtəlif güc idman növlərində uğur qazanmış atletlər, təcrübəli həkim və masajçılar, məşqçilər çalışacaqlar.

Ölkəmizdə ağır atletikanın inkişafı istiqamətində aparılan işlər barədə qəzetimizə açıqlama verən Tofiq Heydərov dedi: "Azərbaycan Ağır Atletika Federasiyası hər il 20-yə yaxın ağır atletika zal və komplekslərinin açılışını, təmir-bərpa işlərini həyata keçirir. 2017-ci ildə Qobustan şəhərində yerləşən mərkəzi ağır atletika zalı, "Spartak" Könüllü İdman Cəmiyyətinin Ramanada yerləşən zalı, "Təhsil" Respublika İdman Mərkəzinin 1 N-li Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin ağır atletika zalı, Mərkəzi Ordu İdman Klubunun bazasındakı ağır atletika zalı, Azərbaycan Respublikası Bədən Tərbiyəsi və İdman Akademiyasının ağır atletika zalı və digərlərində əsaslı təmir-bərpa işləri aparılıb, avandanlıqlar yenilənib, məşq üçün maksimal şərait yaradılıb. Təbii ki, bu işdə "Zirvə" Beynəlxalq İdman Klubu yaxından iştirak edir. Klubumuz tərəfindən son illər bir neçə idman zalı yaradılıb. Məsələn, Astara şəhərindəki AAAF Park Yaşayış Kompleksində yerləşən ağır atletika üzrə yeni təlim-məşq bazası olduqca möhtəşəm kompleksdir. Bu çoxfunksiyalı bazada 150 nəfərlik yarış və 20 nəfərlik ağır atletika məşq zalı, bütün şəraitlə təmin olunmuş paltardəyişmə otaqları, həmçinin müasir avadanlıqlarla təchiz edilmiş geniş AAAF fitnes zalı, 50 nəfərlik yeməkxana və digər otaqlar idmançıların istifadəsinə verilib. Bu il ərzində isə ümumilikdə 10-a yaxın yeni ağır atletika zalını istifadəyə verməyi nəzərdə tuturuq".

Tofiq Heydərov onu da bildirdi ki, insanlar arasında sağlam həyat tərzinin təbliği və gələcək çempionların yetişdirilməsi məqsədilə maddi-texniki bazanın genişləndirilməsi və təkmilləşdirilməsi, idmançıların məşq və hazırlıq şəraitinin yaxşılaşdırılması işi davamlıdır. Cari və növbəti illər ərzində Azərbaycan Ağır Atletika Federasiyası yeni idman kompleksləri istifadəyə verməyi nəzərdə tutur.

Göründüyü kimi, Azərbaycanda idmanın ağır atletik növünün infrastrukturu sürətlə inkişaf etdirilir. Diqqəti çəkən digər mühüm məsələ isə ayrı-ayrı idman klublarının bu işdə dövlət siyasətinə verdikləri dəstəkdir. Bu sahədə "Zirvə" Beynəlxalq İdman Klubunun fəaliyyəti xüsusən təqdirəlayiqdir. Klub idmanın, əsasən də dayaq idman növü olan ağır atletikanın elmi əsaslar üzərində inkişaf etdirilməsi və sağlam həyat tərzinin təkmilləşdirilməsi, eyni zamanda dövlətimizin idmana qayğı siyasətinə öz dəstəyini vermək məqsədilə yaradılıb. Qısa müddətdə ölkəmizdə ağır atletikanın inkişafına böyük töhfələr verən klubun sıralarından ötən 12 ildə neçə-neçə gənc və yeniyetmə Avropa və dünya çempionları çıxıb. Hazırda "Zirvə" Beynəlxalq İdman Klubu qarşıya qoyulan məqsədə - ölkəmizdə idmanın inkişafına layiqincə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Martın 10-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib. MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın martın 7-də keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar ölkə hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda seçicilərin dairələr üzrə siyahılara daxil edilməsi məsələsinə baxılıb və müvafiq seçki dairələri müəyyən edilib.

Komissiya 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin qeydə alınması məsələsinə də baxıb. Aparılan müzakirələrdən sonra Azərbaycan Respublikası prezidentliyinə namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülmüş Fərəc İbrahim oğlu Quliyevin, namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hafiz Ələmdar oğlu Hacıyevin və namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" adlı təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizədliyi qeydə alınıb.

Daha sonra iclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Siyasi partiyaların və prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələrinin, beynəlxalq müşahidə missiyalarının təmsilçilərinin, habelə kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

# Sərhədlərimizin təhlükəsizliyi hər zaman diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir.

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, 2018-ci ilin 8-9 mart tarixlərində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində 3 halda dörd nəfər əcnəbi və bir nəfər Azərbaycan Respublikası vətəndaşı tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınmışdır. Belə ki, 8 mart tarixində Göytəpə sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 3 nəfər Şri-Lanka vətəndaşı - 1988-ci il təvəllüdlü Sinnaiyappilai Dadees, 1982-ci il təvəllüdlü Sinnaiyappilai Jagatheesan, 1995-ci il təvəllüdlü Jeevathasan Ashuimi sərhəd pozucusu qismində saxlanılmışdır.

Həmin tarixdə Şəmkir sərhəd dəstəsinin xidməti ərazisində Gürcüstandan Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş 1999-cu il təvəllüdlü Bukavadze Sara Rövşən qızı sərhəd pozucusu qismində saxlanılmışdır.

9 mart tarixdə Naxçıvan əlahiddə sərhəd diviziyasının xidməti ərazisində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən bir Özbəkistan vətəndaşı - 1989-cu il təvəllüdlü Yerjaşeva Mavhudxov Qafurovna sərhəd pozucusu qismində saxlanılmışdır.

Qeyd olunan faktlar üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 11/63**

## Mərkəzi Seçki Komissiyasının 7 mart 2018-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 7 mart 2018-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*

**Qərar № 11/64**

## Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda səsvermə hüququna malik şəxslərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin müəyyən edilməsinə dair

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 29.2-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikası Prezidentinin seçkilərinin və referendumun təşkili haqqında Təlimat"ına əsasən, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər həmin məcəllənin 47.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla seçki dairələri üzrə seçici siyahılarına daxil edilirlər. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatları Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi təqdim edir. Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında prezident seçkilərində (referendumda) göstərilən seçicilərin siyahıya alınması üçün müvafiq seçki dairələrinin siyahılarını təsdiq edir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 29.2-ci, 35.6-cı və 47.4-cü maddələrinə əsasən **qərara alır:**

1. Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda, seçicilərin sayı və təmsilçilik norması əsas götürülərək, səsvermə hüququna malik şəxslərin seçici siyahılarına daxil edilməsi üçün aşağıdakı seçki dairələri müəyyən edilsin:

16 saylı Yasamal ikinci;

17 saylı Yasamal üçüncü.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*

**Qərar № 11/65**

## 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülmüş Fərəc İbrahim oğlu Quliyevin namizəd kimi qeydə alınması haqqında

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülmüş Fərəc İbrahim oğlu Quliyevin namizədliyinin irəli sürülməsi Mərkəzi Seçki Komissiyasının 2018-ci il 17 fevral tarixli 4/27 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2018-ci il martın 3-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 100-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülmüş Fərəc İbrahim oğlu Quliyev namizəd kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*

**Qərar № 11/66**

## 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hafiz Ələmdar oğlu Hacıyevin namizəd kimi qeydə alınması haqqında

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hafiz Ələmdar oğlu Hacıyevin namizədliyinin irəli sürülməsi Mərkəzi Seçki Komissiyasının 2018-ci il 17 fevral tarixli 4/31 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2018-ci il martın 3-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 100-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hafiz Ələmdar oğlu Hacıyev namizəd kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*

**Qərar № 11/67**

## 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" adlı təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizəd kimi qeydə alınması haqqında

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" adlı təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizədliyinin irəli sürülməsi Mərkəzi Seçki Komissiyasının 2018-ci il 17 fevral tarixli 4/28 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2018-ci il martın 3-də səlahiyyətli nümayəndə tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 100-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" adlı təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayev namizəd kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*

**Qərar № 11/68**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Sahib Bünyamin oğlu Zeynalov 7 saylı Ordubad - Culfa, Ramin Qəhrəman oğlu Yusifov 112 saylı Qax seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Qənbər Niyazi oğlu Xəlilli 7 saylı Ordubad - Culfa, Turab Söhrab oğlu Hacıyev 112 saylı Qax seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*10.03.2018-ci il*




# Bir əsrin qanlı tarixi

Birinci Dünya müharibəsində (1914-1918-ci illər) çar imperiyasının Qərb cəbhəsindəki hərbi uğursuzluqları ölkə ərazisində, xüsusən mərkəzi şəhərlərdə əhali arasında narazılıqlara gətirib çıxarmışdı. Kütləvi etiraz aksiyaları keçirilir, siyasi gərginlik getdikcə artırdı. Xüsusən, bolşeviklərin müharibə əleyhinə əks-təbliğatı, fəhlələri mitinqlərə, tətillərə, silahlı üsyanlara çağırmaları, insanları siniflərə bölərək onlar arasında düşmənçilik yaratmaq cəhdləri vəziyyəti daha da agırlaşdırırdı.

Bütün bunların nəticəsində 1917-ci il fevralın 27-də baş vermiş burjua inqilabı Romanovlar sülaləsinin sonuncu nümayəndəsi II Nikolayın hakimiyyətinin devrilməsinə səbəb oldu. Bununla da imperiyanın bütün bölgələrində, xüsusilə də Qafqazda böyük bir anarxiya başladı.

Fevral burjua inqilabından sonra Bakıda və Azərbaycanın digər şəhərlərində (Gəncə, Şamaxı və s.) ikihakimiyyətlilik yaranmışdı: onlardan biri - burjua müvəqqəti hökumətin yerli hakimiyyət orqanları, digəri isə proletariatla kəndlilərin inqilabi demokratik diktaturası olan fəhlə və əsgər deputatları sovetləri idi. Əslində, çar rejiminin devrilməsi Azərbaycanda böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Çoxları düşünürdülər ki, Rusiyada qurulacaq federativ və demokratik hökumət Cənubi Qafqazda milli ədavətin qızışdırılmasına imkan verməyəcək, ayrı-seçkiliyə son qoyacaq. Lakin yeni yaranmış müvəqqəti hökumətin Cənubi Qafqazda qurduğu "Xüsusi Zaqafqaziya Komitəsi" imperiyanın erməniпərəst siyasətini aradan qaldırmaq ümidlərini boşa çıxartdı. Əksinə, erməni daşnaklarının türk torpaqlarında törətdikləri qırğınlar, "böyük Ermənistan" yaratmaq xülyasını reallaşdırmaqdan ötrü həyata keçirdikləri qanlı əməllər geniş vüsət aldı. Bolşeviklərin sıralarında erməni şovinist millətçilərinin çoxluğu və onların türk-müsəlman əhaliyə qarşı düşmənçiliyi isə Bakıda, hətta regionda vəziyyəti gərginləşdirən əsas amillərdən birinə çevrildi.

## Erməni millətçilərinin "qara oyunları"

Bakı Sovetinin tərkibində azərbaycanlılar demək olar ki, təmsil olunmurdular. Onun tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və digər qeyri-azərbaycanlılardan təşkil edilmişdi. 1917-ci il martın 6-da qatı erməni millətçisi Stepan Şaumyan Bakı Soveti Rəyasət Heyətinin sədri seçilmişdi. Onun və digər erməni şovinist millətçilərinin əsl niyyəti azərbaycanlılara sarsıdıcı zərbə vurmaq, ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək idi.

Həmin dövrdə yaşamış qabaqcıl ziyalılarımız da təbii ki, vəziyyətin fərqində idilər. Fevral burjua inqilabından sonra yalnız Cənubi Qafqazdakı müsəlmanların deyil, bütün Rusiya müsəlmanlarının dağınıq halda olan qüvvələrinin vahid bir mərkəzdə birləşdirilməsi Azərbaycanın siyasi xadimləri qarşısında vacib məsələ kimi dururdu. Onlar bu məqsədlə təşkilatlanmağa çalışırdılar. Yerli əhali Azərbaycan ziyalılarına dəstək verir, onların qurduqları təşkilatlar ətrafında bir araya gəlirdilər.

Zaqafqaziya Komissarlığının qərarına uyğun olaraq, azərbaycanlıların öz milli hərbi hissələrini yaratmağa başlaması isə Şaumyan başda olmaqla bolşevikləri və erməni daşnaklarını daha çox qorxuya salırdı. Bolşeviklər bu prosesin qarşısını almaq üçün azərbaycanlılar arasında təfriqə salır, xalqı öz ziyalıları və iri mülk sahiblərinin əleyhinə qaldırmağa, onlar arasında uçurum yaratmağa çalışırdılar. Erməni millətçiləri çox istəyirdilər ki, Azərbaycanı başsız və çıxılmaz vəziyyətdə qoysunlar, yaranmış qarmaqarışıqlıqdan öz məqsədləri üçün istifadə etsinlər.

## Bolşevizmin gətirdiyi fəlakət

O dövrdə bolşeviklər hər cür demokratik şüarlarla pərdələnsələr də, azərbaycanlıların milli maraqlarına qətiyyən cavab vermirdilər. Bu hərəkatın rəhbərliyində ifrat bolşeviklərin və ermənilərin çoxluq təşkil etməsi əhalinin milli mənafeyinə qarşı böyük təhdid doğururdu. Hadisələrin sonrakı gedişatı bu ehtimalı doğrultdu. Ermənilər tərəfindən istiqamətləndirilən bolşevizm Azərbaycan xalqına sonsuz qırğınlar və fəlakətlər gətirdi. Tədricən Bakıda siyasi və hərbi hakimiyyət bolşevik pərdəsi altında gizlənən erməni daşnak şovinistlərinin əlində cəmləşməyə başladı.

Tarixi araşdırmalara görə, ermənilər hələ XIX əsrin axırlarından başlayaraq 1917-ci ilin sonlarına qədər dünyanın ən iri ölkələrinə arxalanmaqla Türkiyənin tarixi ərazisində erməni dövləti yaratmaq üçün hər cür vasitələrdən istifadə edərək türklərə qarşı kütləvi qırğınlar törətmişdilər. Bu zaman erməni terrorçuları və silahlı quldur dəstələri yüz minlərlə dinc türk əhalisinin qanını axıtmış, onların əmlaklarını qarət etmiş, evlərini yandırmış, kişiləri, qadınları və uşaqları amansızlıqla qətlə yetirmişdilər.

1918-ci ilin 31 mart soyqırımıları ərəfəsi isə o dövr idi ki, Avropa ölkələrində "erməni məsələsi" artıq siyasət aləminə daxil olmuş, "Daşnaksütyun" partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə Bakıya toplaşmış və onlar "böyük Ermənistan" yaradılması üçün yeni yollar seçmişdilər. Rus, eləcə də ingilis, fransız hökumətləri ilə bağlı olan və onlara xidmət edən "Daşnaksütyun" partiyası saxta "böyük Ermənistan" xəritəsini əllərində gəzdirərək, xüsusilə Azərbaycanda milli təfriqə salmaqla yerli müsəlman əhaliyə qarşı düşmənçiliyi qızışdırırdılar.

1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişindən sonra Cənubi Qafqazda özünü ali hakimiyyət elan etmiş Zaqafqaziya Komissarlığı ilə Bakı Soveti arasında münasibətləri nizamlamaq mümkün olmamışdı. Şaumyanın rəhbərlik etdiyi Bakı bolşevikləri yeni yaranmış Zaqafqaziya Komissarlığını tanımadıqlarını bəyan etmiş və bu hakimiyyəti zorakılıqla devirmək üçün fəaliyyətə başlamışdılar. Bolşeviklər insanları ideyaya inandırma prinsiplərinə deyil, özünü doğrultmayan gücə önəm verir, xalqları siniflərə bölərək onların arasında barışmaz düşmənçilik yaradırdılar. Bu, insana nifrət ideyası sonralar yüz minlərlə günahsız adamın amansızcasına qətlə yetirilməsi ilə nəticələnmişdi.

## Azğınların ittifaqı: daşnak üslubu

Qafqaz və İran cəbhəsindəki türk qoşunları tərəfindən məğlub edilən və Brest sülhünün şərtlərinə (həmin sülhün şərtlərinə görə Ərdəhan, Qars və Batum Türkiyəyə verilmişdi) əməl etməyə məcbur olan rus-erməni hərbi birləşmələrinin bu bölgələrə gəlməsi mənfur niyyətlilərin hərisliyini daha da gücləndirirdi. Qoşunun əsas hissəsini təşkil edən erməni hərbi dəstələri Azərbaycanın şimal torpaqlarına - İrəvan, Şərur-Dərələyəz, Dağlıq Qarabağ, Bakı və başqa ərazilərə daxil olurdular. Digər tərəfdən, Türkiyə ərazisindən qaçan ermənilər də Azərbaycanın Qərb torpaqlarında məskunlaşırdılar. Bakıda isə ermənilər bolşeviklərlə birgə özlərini vətəndaş müharibəsinə, azərbaycanlılara qarşı kütləvi soyqırımı aktına hazırlayırdılar. Bakıdakı seçkili qurumlarda qanuni yolla üstünlük qazana bilməyən bu ünsürlər hakimiyyətin ələ keçirilməsinin yeganə yolunu hərbi zorakılıqda görürdülər. Bolşeviklər 1918-ci ilin əvvəllərində xalq arasında ciddi bir dayaqlarının olmadığını başa düşüb hakimiyyəti dinc yolla ələ keçirmək mübarizəsindən silahlı mübarizəyə hazırlaşmaq taktikasına üstünlük vermişdilər. Bu məsələdə isə ermənilər onların işinə yarayırdı.

Araşdırmalarda göstərilir ki, mart qırğını ərəfəsində Bakı bolşeviklərindən Avakyan vəzifəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, komitəyə gələn bütün ermənilərə silah və patron paylayırdı. Onlar artıq bir neçə ay idi ki, ciddi şəkildə silahlanırdılar. Bakının ermənilər yaşayan məhəllələrinə, ətraf kəndlərə hərbi sursat daşınırdı. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti buna dəstək verirdi. 1918-ci ilin yanvar-fevral aylarında özlərinə çox arxayın olan erməni zabit və əsgərləri şəhərin küçələrində sərbəst gəzib-dolaşır, istədikləri özbaşınalıqları edirdilər.

Bu zaman azərbaycanlılar da milli hərbi birləşmələrin yaradılmasına xüsusi diqqət verməyə başlamışdılar. Bakıda, Gəncədə və Azərbaycanın başqa şəhərlərində yaradılan müsəlman milli hissələrinin özəyini bura Petroqrad ətrafından gətirilmiş "Tatar süvari polku" deyilən hərbi hissələr təşkil edirdi. Amma ordunun formalaşdırılması işi çox ləng gedirdi, heç bir kömək yox idi.

Sənədlərdə qeyd olunur ki, bu dövrdə Bakıda üç siyasi qüvvə arasında mübarizə güclənməkdə idi: birinci qüvvəyə daşnaklar, sağ eserlər və menşeviklər; ikinci qüvvəyə bolşeviklər və sol eserlər; üçüncü qüvvəyə isə müsəlman təşkilatları daxil idi. Mübarizənin şiddətli vaxtında birinci iki qüvvə erməni-rus bolşeviklərinin rəhbərliyi altında müsəlmanlara qarşı birləşdilər. Xüsusilə, Bakıda rus və erməni silahlı dəstələrinin Azərbaycan əhalisinə qarşı qarət hərəkətləri baş alıb gedirdi. Soyğunçuluq, qarmaqarışıqlıq və özbaşına axtarışlar əhalini qorxuya salmışdı. Buna etiraz edən müsəlman tacirləri bütün mağazaları bağlamışdılar. 1918-ci ilin yanvarında Şaumyanın göstərişi ilə Müsəlman korpusunun komandiri general Əsəd bəy Talışinskinin Bakıda həbsi şəhərin azərbaycanlı əhalisi arasında qəzəb doğurdu. General-mayor Talışinski rus-yapon müharibəsində Port-Arturun qəhrəmancasına müdafiəsinin iştirakçısı olmuşdu. Onun həbsinə etiraz olaraq Bakıda və ətraf kəndlərdə nümayişlər başlandı. Bolşevik-daşnaklara isə azərbaycanlılara divan tutmaq üçün belə bir bəhanə lazım idi. Ona görə də narazılıqlara baxmayaraq, təxribat əməllərindən yenə əl çəkmirdilər. Növbəti təxribat "Evelina" gəmisində Lənkərana getməyə hazırlaşan əsgərlərin tərksilah edilməsi oldu. Onlar Bakıya görkəmli mesenat Hacı Zeynalabdin Tağıyevin oğlu, əsasən azərbaycanlılardan ibarət "Dika-





ya diviziya"nın Lənkəranda təsadüf nəticəsində həlak olmuş zabiti Məmmədin hərbi qaydada dəfni məqsədilə gəlmişdilər. Dəfn başa çatandan sonra martın 29-da geri qayıtmaq üçün Bakı limanında onları gözləyən "Evelina" gəmisinə mindilər. Şəhərdə çoxsaylı erməni silahlı dəstələrinin olmasına göz yuman bolşeviklər Şaumyanın tapşırığı ilə bu əsgər və zabitləri tərksilah etdilər. Təxribatın təşkilatçıları çalışırdılar ki, azərbaycanlıları cavab addımlarına sövq etsinlər və onlara qarşı əsl müharibəyə başlamaq üçün bəhanə yaransın.

## Qığılcım... ilk atəş ermənilər tərəfindən açıldı

Erməni daşnak-rus bolşevik silahlı dəstələrinin "Evelina" gəmisinə hücum edərək azərbaycanlıları tərksilah etməsi əhali arasında böyük narahatlıq yaratdı. Onlar Bakı məscidlərindən birinin həyətinə yığılaraq gəmidən müsadirə olunmuş silahların geri qaytarılmasını tələb edən qərar çıxardılar. Növbəti gün müsəlman nümayəndələri silahların qaytarılmasını Bakı Sovetindən xahiş etdilər. Həmin gün Hərbi-İnqilab Komitəsində təcili müşavirə keçirildi. Silahların "Hümmət" təşkilatı vasitəsilə geri qaytarılması qərara alındı. Bolşeviklərin rəhbərlərindən Caparidze də bu tələbin yerinə yetiriləcəyinə söz verdi. Amma elə bu zaman küçədə atışma səsləri eşidildi. Məlum oldu ki, Şaumyanın qabaqcadan hazırladığı təxribat artıq baş tutub və azərbaycanlıların kütləvi soyqırımına doğru ilk hərəkətlər başlanıb. "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planı reallaşdırılırdı.

30 mart 1918-ci il axşam saat 6-da Bakı artıq əsl döyüş meydanına çevrilmişdi. Bütün erməni silahlı qüvvələri Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tərəfinə keçmişdi. Azərbaycanlıların hərbi sursatı yox dərəcəsində idi. Soydaşlarımızın yaşadığı məhəllələrdə dəhşətli qırğınlar törədilirdi. Fövqəladə İstintaq Komissiyasının sənədində qeyd olunur ki, erməni milli komitəsinin hərbi drujinası adlandırılan erməni silahlı dəstəsi müsəlmanların yaşadığı ərazilərə atəş açmağa başladı. Demək olar ki, eyni bir vaxtda Levon Saatsazbekovun erməni dəstəsi şəhərin "Şamaxinka" adlanan hissəsini atəşə tutdu. Ermənilərin əsas hücumları şəhərin "Kərpiçxana", "Məmmədli" və "Zibilli Dərə" adlandırılan hissəsinə istiqamətlənmişdi. Burada yaşayan əhalinin demək olar ki, hamısı müsəlmanlar idi. Şəhərin bu rayonu və başqa müsəlman rayonları dənizdən "Ərdəhan" və "Janr" hərbi paraxodlarının toplarından atəşə tutulmuşdu.

Ermənilər rusları inandırmışdılar ki, guya İçərişəhərdə azərbaycanlılar bu millətdən olanları qırırlar. Matroslar xəbərin yalan olduğunu biləndən sonra atəşi dayandırsalar da, artıq gec idi. Alova bürünmüş məhəllələrdə ölənlərin sayı-hesabı bilinmirdi. Top atəşləri nəticəsində müsəlmanların əsas ibadət yeri sayılan Təzəpir məscidinin minarələri ağır zədə almışdı. Ermənilər heç bir azərbaycanlıya rəhm etmirdilər.

Bu vaxt Nəriman Nərimanov qırğının qarşısını almaq üçün işə qarışmalı olur. Mart ayının 30-da saat 2-də öz evində müşavirə çağırır. Hətta müşavirəyə S.Şaumyan da dəvət olunur və hadisələrin qarşısını almaq üçün ona müraciət edilir. Şaumyan həmin müşavirədə hiyləgərcəsinə qırğının dayandırılacağına söz verir. Hətta Nərimanov telefonla A.Caparidzeyə zəng vurur və necə olursa-olsun qırğının dayandırılmasını tələb edir. Lakin bunun heç bir təsiri olmur, ermənilər qırğını daha da gücləndirirlər. Soyqırımı aprelin 2-si, gecə yarıyadək davam edir. Sağ qalanlar Bakını tərk etmək məcburiyyətində qalırlar. Üç gün davam edən qanlı qırğın zamanı 20 mindən çox azərbaycanlı qətlə yetirilir.

## "Əks-inqilaba" qarşı mübarizə adı altında milli qırğın

Azərbaycanda mart qırğınının təşkilatçısı və rəhbəri Stepan Şaumyan 1918-ci il aprelin 18-də RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda yazırdı: "Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi". Həmin dövrdə V.Lenin Bakı Sovetinin başçısına aşağıdakı məzmunda teleqram yollamışdı: "Hörmətli yoldaş Şaumyan, məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir və indiyədək biz yalnız imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu münaqişələri işlətməyi öyrənin..." Mahiyyətcə milli soyqırımı olan mart döyüşləri Bakı Sovetinə qısa müddət ərzində vəziyyətə nəzarət etmək imkanı versə də, əhali arasında sovetlərə qarşı kin-küdurəti daha da artırırdı. Həmin günlərdə təpədən-dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara belə aman vermirdilər. Qadınlar daha ağır şəkildə qətlə yetirilirdi. Arxiv materiallarına əsasən, təkcə bir yerdə torpağın altından qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 57 qadının meyiti tapılmışdı. Hətta daşnak silahlı dəstələri Nəriman Nərimanovun evinə də basqın edərək qardaşını həbs etmişdilər. N.Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında yazırdı: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər". Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, qiymətli əşyaları isə özləri ilə aparırdılar. Azərbaycanlılara qarşı bu soyqırımı və qarətlərdə Anastas Mikoyanın başçılıq etdiyi "Qızıl Qvardiya" dəstələri xüsusilə fərqlənmişdilər. Bakı əhalisinin 400 milyon manatlıq əmlakı talan edilmiş, müsəlmanların bir çox ziyarətgahları dağıdılmışdı. Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına, "Kaspi", "Açıq söz" qəzetləri redaksiyalarına od vurulmuşdu.

Bakı milyonçuları Musa Nağıyevin və Şəmsi Əsədullayevin nəvəsi, Fransada yaşayıb-yaratmış yazıçı Ümmülbanu (Banin) 1918-ci ilin mart günlərini belə xatırlayırdı: "Həmin vaxtlarda Azərbaycanın paytaxtı Bakı şəhərində siyasi canlanma güclənmişdi. Yaranmış müxtəlif siyasi təşkilatların fəaliyyəti sayəsində rəqabət, dağıntı, döyüşlər baş verdi. Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura rejimi yaratdı. Amma camaat pıçıldaşırdı ki, bu təşkilatın başçıları bolşeviklərdir. Onlar hər kim olsalar da, hakimiyyətləri dövründə müdafiə imkanı olmayan müsəlmanları qırmağa başladılar... Biz hər dəqiqə daşnakların evə dolacağını, mənzilimizi dağıdıb bizi də qıracaqlarını gözləyirdik. Telefon da kəsilmişdi... Nəriman Nərimanov bu hadisələrə dözə bilmədi, xəstələndi və Bakını tərk etdi. S.Şaumyana və A.Mikoyana qoşulan Məşədi Əzizbəyov isə faciəvi olaylardan baş çıxara bilmədi... Bakı ilə yanaşı, Azərbaycanın digər ərazilərində də ermənilər əhaliyə qarşı tarixdə görünməmiş qəddarlıq edirdilər..." 1918-ci il mart ayının 14-də daşnak Əmirovun komandanlığı altında Şamaxıya bolşevik dəstələri göndərildi. Martın 16-da məlum oldu ki, əsgərlər Şamaxıya hərəkət edərkən yol boyu Ağdərə, Novxanı, Qarxunlu və başqa kəndləri qarət etmiş, əhalini qırıb-çatmışdı. Martın 17-də erməni qoşunları Şamaxıya yetişmiş və böyük vuruşma başlamışdır. Martın 30-da ermənilər Mədrəsə kəndindən şəhəri top atəşinə tutmuşdular. Aprelin 3-dən 16-dək Şamaxı şəhəri və onun kəndlərinin müsəlman əhalisi böyük itkilər vermişdi. Bu ərəfədə Petrovun və Avetisovun quldur dəstələri kütləvi qırğınlar törətmişdilər. Tarixi abidə olan Cümə məscidi yandırılmışdı.

Ermənilər eyni qırğınları Qubada, Lənkəranda, Göyçayda, Salyanda, Kürdəmirdə və Azərbaycanın başqa bölgələrində də davam etdirirdilər. Bakı və Bakı quberniyası bolşevik-daşnakların əlinə keçdikdən sonra Şaumyanın tapşırığı ilə Qubaya David Gelovaninin başçılığı altında 187 nəfərlik silahlı əsgər dəstəsi göndərilmişdi. Lakin bir neçə gündən sonra əhali Gelovanini qovmuşdu. 1918-ci il mayın 1-də Qubaya azərbaycanlıların qatı düşməni, daşnak Hamazaspı və onun köməkçisi Nikolayın komandanlığı altında, tərkibi ermənilərdən ibarət təxminən iki min nəfərlik dəstə göndərildi. Bu dəstə azərbaycanlılara qarşı özünün amansızlığına görə "cəza dəstəsi" adını almışdı. Hamazaspın "cəza dəstəsi" Quba şəhərini və Quba qəzasının 162 kəndini darmadağın etmiş, 16 mindən çox insan qətlə yetirilmişdi.

Azərbaycanın İrəvan, Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrində isə Andranikin, Dronun, Njdenin silahlı dəstələri azərbaycanlıların kütləvi qətliamını həyata keçirmişdilər. Erməni tarixçisi A.Lalayan yazırdı: "Andranikin başçılıq etdiyi daşnak dəstələri türk kəndlilərinin, onların uşaqlarının, qadınlarının və qocaların qətli zamanı "böyük şücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində sağ adam qalmırdı, hər yer insan qalıqları ilə dolu xarabalığa çevrilirdi". Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirmiş, meyitlərini isə Araz çayına atmışdır...

## Mart soyqırımı ərəfəsində mətbuat orqanlarına qadağalar qoyuldu

1918-ci ilin mart soyqırımınadək Azərbaycanda 20-dən artıq ana dilində mətbuat orqanı fəaliyyət göstərirdi. Qətliamdan sonra yalnız "Hümmət" və "Bakı Şurasının əxbarı" qəzetləri nəşr edilirdi, digər mətbuat orqanlarına qadağa qoyulmuşdu. "Açıq söz", "Bəsirət", "İstiqlal", "El həyatı" və digər azərbaycandilli qəzetlərin son sayları soyqırımından bir gün əvvəl - martın 17-si və 18-də çıxmışdı. Bu da onu göstərirdi ki, qırğınlar ərəfəsində Azərbaycanın milli mətbuat orqanları, mətbəələr və jurnalistlər də hədəfə alınmışdı. 1919-cu ildə çap edilən "Azərbaycan" qəzetində 31 mart soyqırımı ilə bağlı fotoşəkillərdən biri "Kaspi" qəzeti redaksiyasının yandırılmasından sonrakı vəziyyəti təsvir edirdi. Bakı Sovetinin sədri Şaumyanın əmri və mətbuat bürosunun qərarı ilə "Mart hadisələrinə düzgün qiymət vermədiklərinə və vahid sosialist cəbhəsində dayanmadıqlarına" görə, hətta rusdilli qəzetlər də bağlanmışdı. "Kaspi", "Baku", "Bakinets", "Vesti Baku", menşeviklərin "Naş qolos" qəzetlərinin nəşri dayandırılmışdı. Bəyanatların, əhaliyə müraciətlərin çapı qadağan edilmişdi. "Azərbaycan" qəzetinin 1919-cu ildə çıxan 147-ci sayında "Mart hadiseyi-ələməsinin müxtəsər tarixçəsi" sərlövhəli məqalədə Şaumyanın, Saakyanın və Arekyanın rəhbərlik etdikləri dəstənin Şamaxıda törətdikləri qırğınlar barədə ətraflı məlumat verilirdi. Bu xəbərin Bakıda güclü təşviş doğurduğu göstərilirdi, insanlar erməni vəhşiliklərinə heyrət edirdilər. "Hümmət"in "Şamaxı əhvalı" sərlövhəli məqaləsində qeyd olunurdu ki, 17 yaşından 50 yaşınadək Şamaxı erməniləri bolşeviklərin Qırmızı ordusunun tərkibinə qatılmışdılar. Vəziyyətin acınacaqlı olduğunu qəzet bu sözlərlə bildirirdi: "Şamaxı şəhəri bütünlüklə yanıb".

## İlk hüquqi qiymət

1918-ci ilin mart hadisələrinə ilk dəfə AXC tərəfindən qiymət verilməyə cəhd göstərilmişdi. Fövqəladə istintaq komissiyası yaradılmış, törədilmiş vəhşiliklər və cinayətlər araşdırılmışdı. Lakin AXC-nin süqutu bu işi başa çatdırmağa imkan verməmişdi. Sonra uzun illər davam edən sovet rejimi dövründə saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində milli yaddaşımız tamamilə yad istiqamətdə köklənmişdi. Bu soyqırımı faktı əsl hüquqi-siyasi qiymətini yalnız Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Ulu öndər Heydər Əliyevin mart hadisələrinin 80-ci ildönümü münasibətilə - 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni təcavüzkarlarının terror hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənəddə martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması təsbit edilmişdir.

Ulu öndər Heydər Əliyevin milli dövlətçilik strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev bu xüsusda demişdir: "Biz yalnız tarixi ədalətin və həqiqətin bərpa edilməsini, işğal və soyqırımı siyasətini yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında ittiham olunmasını istəyirik. Əminəm ki, xalqımızın vətənpərvərliyi, milli birliyi və məqsədyönlü fəaliyyəti ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımıların dünya ictimaiyyətinə çatdırılması prosesində önəmli rol oynayacaqdır".

Azərbaycan Prezidentinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 18 yanvar 2018-ci il il tarixli sərəncamı da bəşəriyyətə qarşı yönəlmiş cinayətlərin qarşısının alınmasına, ümumilikdə dünyanın bir daha belə dəhşətlər yaşamaması məramına yönəlmiş mühüm dövlət sənədidir.

## Fərqli bir dünya arzusu

Dünyada sülhün qorunması, insanların əmin-amanlıq şəraitində yaşaması, hər cür zorakılığın qarşısının alınması arzusu bütün zamanlarda bəşəriyyəti düşündürüb. Lakin təəssüflər olsun ki, beynəlxalq aləmin bu məsələlərə yanaşmaları çox zaman birtərəfli olub. Bu cür problemlərə münasibətdə ikili standartlar tətbiq edilib. Bu cür yanaşmalar ksenofobiya və ayrı-seçkiliyin digər təhlükəli formalarına yol açıb, milyonlarla insanı yenə də etnik zəmində terrorizmə və zorakılığa məruz qoyub. Dünya bəzən unudur ki, yalnız döyüşən tərəfləri ayırmaq və gərginliyi aradan qaldırmaq çıxış yolu deyil. Münaqişə və zorakılığın, beynəlxalq terrorizm və dözümsüzlüyün köklərinin əsaslı surətdə yox edilməsi sülh mədəniyyətinə şərait yaradılmasından bilavasitə asılıdır. Soyqırımı kimi bəşəri cinayətlərdə əli olan bütün insanlar beynəlxalq ədalət mühakiməsi qarşısında cavab verməlidir. Bu cinayətlərə görə məsuliyyət daşıyanlar bunun əvəzini ödəməlidirlər. Bunlar olmayana qədər xalqlar, cəmiyyətlər yenə də oxşar talelər yaşayacaq, cinayət əməlləri ilə təhdid olunacaq. Yenə də dünyanın harasındasa insanları sadəcə hansısa milli mənsubiyyəti daşıdıqlarına görə öldürəcək, zorakılıqlarla üz-üzə qalacaqlar. Öz xislətindən əl çəkməyən ermənilərin azğınlığı, əli azərbaycanlı körpələrin qanına batmış Ermənistan siyasilərinin şər mahiyyəti yenə də böyük bir region üçün ciddi təhlükə mənbəyi olaraq qalacaq.

Xalqımız gələcək nəsillər üçün daha gözəl bir dünya qurmaqdan ötrü tərəqqipərvər bəşəriyyəti haqqı, ədaləti təmin etməyə, zalımları öz cəzalarına çatdırmağa çağırır.

Bu, Azərbaycan dövlətinin, dünyanın gələcəyinə görə dərk edilmiş məsuliyyətidir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*

*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*

*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*

*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*

*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*

*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 2018-ci il 10 yanvar tarixli sərəncamı ilə bu il təntənə ilə qeyd edəcəyik. Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*

*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

# 28 MAYISA DOĞRU!..

Çarlıq Rusiyanın süqutundan təqribən bir ay sonra, 1917 sənəsi nisanın ortalarında Bakının məruf "İsmailiyyə" binası salonunda toplanmış olan ümumi Qafqasiya islamları yeni Rusiyanın şəkli-idarəsini müzakirə ediyordu. Rusiyada yaşayan 30-35 milyonluq türklərin milli inkişaflarını təmin üçün hankı bir üsuli-idarəyə ehtiyac vardır? Rusiyada yaşayan türklər nə kibi bir proğramla meydana çıxmalıdırlar?

Şübhəsiz ki, yeganə yol istiqlal yolu idi. Hər millət kəndi müqəddəratına hakim olmaqladır ki, milli varlığını, milli harsını və milli xüsusiyyətlərini mühafizə və inkişaf etdirə bilir. Fəqət Rusiyanın o əsrididə təhəkkümü altında boğulan, inkişaf və hazırlıqdan nisbətən məhrum olaraq çıxmış olan türklər bu **istiqlala** yavaş-yavaş, Rusiyadakı digər məhkum millətlərlə birlikdə yürüyəcəklərdi. Onun üçün qurultayda hakim bulunan Azəri milliyyətpərvərlər firqəsi **"Müsavat"** Azərbaycan, Türkistan, Qırğızıstan, Başqırd, Kazan, Krım türkləri üçün milli-məhəlli avtonomi və buna görə Rusiyanın federasyon əsas üzərinə qurulmasını təklif ediyordu.

Bu tezisə qarşı sağ və sol cinahlarda, yalnız dini və harsı avtonomilə iktifa eyləyən Rusiya mərkəziyyətçiləri vardı.

Bilaxirə qurultayın qəbul etdiyi **"Müsavat"** tezisini eyni sənənin mayıs ayında Moskvada açılan bütün Rusiya türklərinin konqrasında **"Müsavat"** lideri Məhəmməd Əmin Rəsulzadə müdafiə edərkən, Qafqasiya qurultayında olduğu kibi, qarşısına sol mərkəziyyətçilər çıxmış, Rusiya mərkəziyyətini müdafiə edərək ədəmi-mərkəziyyətin istiqlala, tamamilə ayrılmağa götürən bir yol olduğunu və bunun da yeni ixtilalçı Rusiya demokrasisinə xəyanət olacağını isbata çalışıyorlardı. Fəqət Qafqasiya qurultayının qərarı bu böyük türk qurultayı tərəfindən dəxi davamlı alqışlarla qəbul edilmişdir.

Azərbaycan və digər türk millətsevənlərinin vəzifələri bununla bitmiyordu. Biləks, sağından tutmuş soluna qədər bütün rus siyasi partilərilə o zamanki ixtilal hökumətinin tamamilə quduzlanmasını mücib olduğundan türklərdə başlayan bu hərəkata qarşı təzyiq və hücum artmağa başlamışdı. Bir tərəfdən bu hücumlara və təzyiqlərə qarşı durmaq, digər tərəfdən fövqəlzikr müqərrəratı həyata keçirmək üçün milli qüvvətləri milli təşkilatlar ətrafında toplamaq, bu təşkilatların özünü vücuda gətirmək, məzkur təşkilatlar vasitəsilə Rusiyanın gələcək müqəddəratını təyin edəcək Məclisi-Müəssisana hazırlanmaq lazım gəliyordu.

Azərbaycan millətsevənləri bu təşkilat dövrü vəzifələrini, müvəqqəti ixtilal hökumətinin yaratdığı müşkülata rəğmən, tam bir müvəffəqiyyətlə ifa etdilər. Vaqe olan ümumi, müsavi, xəfi və müstəqim seçkilərdə, qadın və ərkəgin müsavi iştirakları ilə Azərbaycan mərkəzi və məhəlli "Milli Şuraları" "Müsavat" firqəsilə milliyyətpərvər demokrat qurupun tam müzəfferiyyəti altında təşəkkül eylədi.

Milli Şura bir tərəfdən Azərbaycan məhəlli idarəyi əlinə almağa çalışırkən digər tərəfdən Rusiya Məclisi-Müəssisanına icra edilən seçkilərə hazırlanıyor, eyni zamanda türklərlə olduğu kibi Rusiyanın digər məhkum millətləri olan Ukrayna, Leh, Fin, Eston, Latış, Litva, Gürcü v.s. ilə bir birlik yapmağa və müştərək bir cəbhə yaratmağa çalışıyordu. Bu məqsədlə Ukraynanın mərkəzi olan Kiyev şəhərində, Azərbaycan müməssillərinin iştirakı ilə açılan konqre gələcək Rusiya Məclisi-Müəssisanında millətlərin hürriyyətini tələb eyləmək üçün rus olmayan bütün millətlərin müştərək hərəkət eyləməsinə qərar vermişdi.

Böylə bir hazırlıq və vahid cəbhə ilə Azərbaycan və onun hürriyyəti şüarı ilə Məclisi-Müəssisan seçkilərinə girişən Azərbaycan millətsevənləri Azərbaycan xalqının 95 faizinin rəyini qazanmağa müvəffəq olmuşdu.

Fəqət bu zaman Rusiya ixtilalı tarixində bir dönüm anı başladı. Tişrini-sani (noyabr) ayının başlanğıcında 1917 sənəsində Mərkəzi Rusiyada hakimiyyəti bolşeviklər əllərinə aldılar və açılmaq üzrə olan Məclisi-Müəssisanı dağıdaraq diktatorluq elan etdilər. Rusiyayı tam bir anarşi bürüməyə başladı. Qafqasiya ilə Rusiyanın irtibatı tamamilə kəsildi. Yeni bir vəziyyət və yeni bir şərait vücuda gəldi ki, ona görə də yeni bir taktik qəbul etmək icab ediyordu. Rusiyada şubat (fevral) ixtilalından sonra Qafqasiyada əski çar nayibligi əvəzində, türk, gürcü və ermənilərdən mütəşəkkil bir Mavərai-Qafqasiya (Zaqafqasiya) komisarlığı təsis edilmişdi. Mərkəzi Rusiyada bolşevik hökuməti təəssüs etdikdən sonra Zaqafqasiya komisarlığı bolşevik hökumətini qəbul etməməgi, müvəqqətən hökumət şəklini almayı qərara alaraq 28 noyabr 1917-də Zaqafqasiya millətlərinin milli təşkilatlarının iştirakı ilə Y.Qeqeçkorinin rəyasətində təşəkkül edən bu hökumət Zaqafqasiya millətlərindən Rusiya Məclisi-Müəssisanına seçilmiş məbusların iştirakilə Zaqafqasiya Seymi (Parlamentosu) dəvət eyləməgi qərara aldı. Y.Qeqeçkori 1918 sənəsinin 25 fevralında Tiflisdə açılan türk, gürcü, erməni və rus məbuslarından ibarət olan Seymə komisarlığı təslim etdikdən sonra yeni Qeqeçkori hökuməti təşəkkül etdi.

Zaqafqasiya Seymində siyasi firqələr deklarasiyonlarını elan edərkən Seym məzbətələrindən (protokollarından) görüldügü vəchilə yalnız "Müsavat" fraksiyonu idi ki, bütün millətlərin, o cümlədən Azərbaycan dəxi müstəqil olması məqsədini güddüklərini və bunun üçün çalışdıqlarını elan ediyordu.

Fəqət Seym qarşısında o zaman daha həyati məsələ duruyordu. Rusiyada iş başına gələn bolşeviklər Almaniya-Türkiyə ilə əqd etmiş olduqları məruf Brest-Litovsk müahidəsi mövcibincə Türkiyə Batum, Qars və Ərdəhan tərəflərini işğal ediyordu. Rusiyanın əski Qafqasiya hərb cəbhəsinin tamamilə ləğv edilməsi lazım gəliyordu. Türkiyə ilə mütəqabil münasibəti təyin eyləmək lazım idi. Fəqət Türkiyə Qafqasiyayı Rusiyanın bir hissəsi halında bildigindən onunla müstəqil bir hökumətlə olduğu şəkildə qonuşmuyordu. Brest-Litovsk qərarının Qafqasiyaya görə tətbiqi əleyhində olan Seym əksəriyyəti hüquqən Rusiyanın bir qismi olmaq həsəbilə Brest-Litovsk müqəddəratını qəbul eyləmək, Türkiyənin Qars və Batuma girməsinə mane olmamaq məcburiyyətində idilər. Brest müahidəsinin tətbiqindən sonra belə Türkiyə ilə müstəqil bir dövlət şəklində anlaşmaq mümkün olmayacaqdı. Çünki Qafqasiya kəndisini rəsmən Rusiyadan ayrı olaraq elan etməmişdi.

Böylə bir vəziyyət qarşısında Zaqafqasiya Seymində və onun Türkiyə ilə müzakirə üçün göndərdigi heyət içərisində bir vəhdət olmadığı meydana çıxmışdı.

Qars-Batumu Türkiyəyə vermək istəmiyən əksəriyyət fraksiyonları Qafqasiyanın müstəqil elan edilməsində dəxi tərəddüd ediyorlardı. Halbuki azərbaycanlılar hər şeydən əvvəl Qafqasiyanın müstəqil elan edilməsini, Türkiyənin təkliflərini qəbul edərək anlaşmayı, ondan sonra Erivan tərəflərində və Azərbaycanda qətliama məruz bulunan türk xalqının qurtarmasına baxmağı istiyorlardı.

Türkiyənin Batuma və Qarsa girmək üçün irəliləməyi davam eyləməsi bütün Zaqafqasiyanın müqəddəratını meydana qoyurdu. **"Müsavat" firqəsi rəisi Rəsulzadə Məhəmməd Əmin bəyin hərarətli müdafiəsindən sonra Seym 9 nisan 1918-də "Zaqafqasiyanın müstəqil xalq cümhuriyyəti" olduğunu elan eylədi.**

Fəqət Zaqafqasiyanın Azərbaycan qismi və ümumiyyətlə türklərlə məskun yerlər atəş içərisində yanıyordu. Bakıdakı rus əmələsi, rus əskəri qüvvəti və cəbhədən dönən erməni əskəri hissələrinə istinad edən və Şaumyanın idarə etdigi bolşevik firqəsi Bakıda 14.000 türk əhalisini kəsdikdən sonra Şamaxı, Lənkəran, Səlyan tərəflərini işğal edərək Gəncəyi işğal üçün Kürdəmir və Hacıqabulda duran bir ovuç milli Azərbaycan alayını mühasirə altına almaq üzrə bulunuyordu. Şərqi Azərbaycan bolşevik-daşnaq atəşi içərisində yanmaqda ikən İrəvan vilayətində dəxi yüzlərlə türk köyləri imha ediliyordu. Zaqafqasiya hökumətini təşkil edən millətlər hərə kəndi başını qurtarmaqla məşğul bulunduğundan bu hökumətdən Azərbaycana felən bir yardım olmuyordu.

Bu surətlə daxili və xarici siyasətdə daha müştərək bir proğram tənziminə müvəffəq olmayan Seym 26 mayısda aşağıkı qərar ilə kəndisini ləğv edərək milli vahidlərə ayrıldı.

"Müstəqil Zaqafqasiya Cümhuriyyətini təşkil edən millətlər arasında hərb və sülh məsələsində ixtilaf rəy görüldügündən, bundan dolayı bütün Zaqafqasiya naminə səlahiyyətdar bir hökumət təşkili mümkün olmadığından Seym Zaqafqasiyanın parçalandığını bir əmri-vaqe kibi tələqqi edərək kəndi səlahiyyətini tərk ediyor".

Eyni gündə Seymin gürcü fraksiyonu Gürcüstanı Müstəqil Cümhuriyyət elan edərək Türkiyə ilə ayrıca müzakirəyə başladı. Fəqət Türkiyə artıq Batuma girmiş və Qarsa sahib olmuşdu.

Azərbaycan kəndi müqəddəratını kəndisi təyin eyləmək, atəş içərisində olan məmləkətdə nizam və asayiş qurmaq, paytaxtını qurtarmaq kibi böyük və tarixi imtahanlar qarşısında bulunuyordu. Ordusu, parası, dövlət makinası olmayan bir millətin bütün bu tarixi vəzifələri ifa etməgə qalxması xarü quladə bir hadisə olacaqdı. Azərbaycan Milli Şurası, Azərbaycan Məclisi-Məbusanı toplanancaya qədər bu tarixi məsələləri həll etmək təşəbbüsünü kəndi öhdəsinə alaraq mayısın 28-də 1918 sənəsində Cənubi və Şərqi Zaqafqasiyadan ibarət Azərbaycanın bu gündən etibarən tam hüquqlu müstəqil bir dövlət olduğunu və bu müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olduğunu elan eylədi.

Həziranın (iyunun) 4-də Azərbaycan Cümhuriyyəti Türkiyə ilə ilk beynəlmiləl müahidəsini əqd ediyordu. Bu müahidələr içərisində ən mühümini təşkil edən əskəri müqavilə mövcibincə Türkiyə Azərbaycana əskəri yardım göndərməgi vəd ediyordu.

Müştərək Türkiyə-Azərbaycan ordusu eylülün (sentyabrın) 15-də Bakıyı daşnak-bolşevik qüvvətlərindən təmizlədi və hökumət Gəncədən Bakıya köçdü. Tişrini-saninin (noyabrın) 16-da tariximizdə pək qiymətli və pək müqəddəs işlərilə şərəfli səhifələr tutacaq Şurayi-Milli son içtimaini yaparaq mövqeini 1918 sənəsi 7 kanuni-əvvəldə (dekabrda) açılan Azərbaycan Məclisi-Məbusanını tərk etdi.

Bu istixlas və mücadilə dövrünün sonu mədəni quruluş və daxili fəaliyyət dövrünün başlandığı demək idi.

Əgər bu hürr və müstəqil yaşayışımıza, bu mədəni quruluş və fəaliyyətimizə, hər bir bitərəf azərbaycanlının belə etiraf eylədigi üzrə, əgər bu heçdən yaratdığımız bir varlığa **fasilə verilmişsə,** əgər biz 12 ildən bəri o məsud və altın dövrümüzü yenidən qaytarmaq üçün bütün varlığımız ilə çarpışıyoruzsa, bu 28 Mayısın tariximizdə, bəlkə Azərbaycanın ilk Türk Cümhuriyyəti olması etibarı ilə bütün türk tarixində açdığı böyük və parlaq dövrün əhəmiyyətini qətiyyən azaltmaz. Bəlkə bugünkü fədakarlıqlar, bugünkü israr, inad və mücadilə kəndi qüvvətini, kəndi ilhamını o 28 Mayıstan almaqdadır.

Millətimizin varlığını, hakimiyyətini və hürriyyətini elan edən, ona milli bir bayraq, milli bir məfkurə, müstəqil bir dövlət həyatı verən 28 Mayısın ikinci bir 15 eylül təmin edəcəgi şübhəsizdir.

***M.B.Məhmədzadə***
***"Odlu-Yurd", 28 Mayıs1930, № 16***

*Əsrididə - əsrlər görmüş, qoca, köhnə*
*Xəfi - gizli*

**Qeyd:** *Məmmədzadə Mirzə Bala (1898 Bakı-Zirə kəndi - 1959 İstanbul) Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimi, publisist, yazıçı, tarixçi.*

*(Geniş bax. AXC (1918-1920) ensiklopediyası. İİ cild, Bakı, 2005, səh. 191-193)*

**P.S. Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib.**










**Muzeydəyik... Lakin digərlərindən fərqli olaraq, burada incəsənət, tarix, mədəniyyət inciləri ilə tanış olmuruq, əksinə, özümüzü, fiziologiyamızı tanıyırıq...**

**Bu məkanı hərə bir cür adlandırır - "mumiyaların saxlanıldığı muzey", "meyitxana" və sair... Amma bu adların heç biri onun mahiyyətini əks etdirmir. Əslində isə bura tədris məkanı, insanın öz orqanizminə, bədən quruluşuna bələd olması üçün ən mükəmməl informasiya mənbəyi olan Anatomiya Muzeyidir...**

# RUHSUZ BƏDƏNLƏR

## 99 yaşlı Anatomiya Muzeyi öz sahəsi üzrə dünyanın ən yaxşıları sırasındadır









### 5200-dən artıq preparat, 24 minə qədər eksponat

Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının yerləşdiyi binanın dəhlizindəki insan anatomiyasının bütün hallarını özündə əks etdirən böyük rəsmlər bu məkan barədə ilk təəssüratı yaradır. Həmsöhbətimiz ATU-da insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski deyir ki, kafedra və onun nəzdindəki muzey öz fəaliyyətinə 1919-cu ildə başlayıb. 2017-ci ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeydə alınan muzey dünyada bu cür fəaliyyət göstərən analoqlarından istər sahə, istərsə də preparat sayı baxımından ən böyüyüdür.

Ötən 99 ildə kafedranın tərkibindəki Anatomiya Muzeyi tədris muzeyi kimi fəaliyyət göstərib və xeyli genişləndirilib. Muzey "Dayaq-hərəkət aparatı", "Anomaliya", "Sinir sistemləri" və "Daxili orqanlar" olmaqla 4 bölmədən ibarətdir. Anatomiya tədris muzeyi hazırda 5200-dən artıq preparata, 24 minə qədər eksponata malikdir.

Bu eksponatlar əsasən tədris prosesində istifadə edilir, ancaq sıravi vətəndaşlar da bu muzeyə gedib nadir eksponatlarla tanış ola bilərlər. Qeyd edək ki, muzeyə giriş ödənişsizdir.

### Süni qidalanan cansız bədənlər

İndi keçək burada illərlə cansız bədənlərin necə və hansı formada saxlanılması prosesinə... Necə olur ki, kafedraya gətirilən meyitlər çürümür, iylənmir və orqanları xəsarət görmür?

V.Şadlinski deyir ki, meyitlər gətirilən zaman çürüməmələri üçün damarlarına formalin (xüsusi məhlul) doldurulur. Nəticədə süni qidalanma olur. Belə meyitlər illərlə saxlanılır. Tələbələrin meyitlərlə işləməsi çətin olsa da, onların hansısa xəstəliyə yoluxması mümkün deyil. Çünki formalin buna imkan vermir. Yaxud da meyiti təhvil almamışdan əvvəl onun vərəm və ya onkoloji xəstə olub-olmadığı öyrənilir. Çünki belə meyitlər götürülmür. Meyitin damarları nə qədər formalinlə doldurulsa da, toxumalarda xəstəliyin izləri qala bilər.

Söhbət zamanı Vaqif Şadlinski meyit azlığından da şikayətləndi: "Tələbələri öyrətmək üçün əyani vasitələrdən istifadə etməliyik. Meyit az olduğundan tələbələr preparatlar üzərindən öyrənirlər. Meyitlərin cinsiyyət fərqi yoxdur. Əvvəllər meyit çox olduğundan on tələbəyə birini verə bilirdik. İndi isə vəziyyət fərqlidir. Çünki yaxınları olmayan şəxslər kimsəsizlər qəbiristanlığında basdırılır. Ona görə də bu cür meyitləri götürə bilmirik. Bu baxımdan, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi ilə əməkdaşlıq edirik. Bəzən meyiti aldıqdan bir müddət sonra onun sahibi çıxır. Əgər meyitin üzərində işlənilibsə, geri qaytarmaq mümkün olmur".

### Malinovskinin külü, "təpəgöz", siam əkizləri...

Bundan sonra bizə bələdçiliyi muzeyin əməkdaşı İlahə Rüstəmova edir. Öncə Anomaliya bölməsinə baş çəkirik. Burada döl formasında və anomaliyayla doğulan uşaqların bədəni yerləşdirilib. Muzeydə nümayiş olunan "eybəcər" doğulmuş uşaqları müşahidə edirik. Anensefaliya, akraniya, el arasında su yığımı adlanan beyin hidropu və yırtığı, onurğanın arxadan yarığı, dovşandodaqlıq, bir sözlə anormal doğulmuş uşaqlar formalin dolu şüşə qablarda saxlanılır.

Şüşədəki eksponatların dərmanı ildə bir dəfə dəyişdirilir. Rəngi saralmış formalin yenisi ilə əvəz edilir. Əgər vaxtı-vaxtında dəyişidirilməzsə, eksponat məhv ola bilər. Ona görə də buna ciddi nəzarət edilir.

Muzeydə diqqət çəkən "eybəcər"liklərdən biri "təpəgöz" deyə adlandırılan normadan çox inkişaf etmiş burnu və alnında tək gözü olan körpədir. Siam əkizləri, bir bədəndə iki baş, inkişafdan qalmış, yaxud həddindən çox inkişaf etmiş uşaqlar barədə də məlumat alırıq. Öyrənirik ki, vərəm və başqa xəstəliyin təsiri nəticəsində belə eybəcərliklər əmələ gəlib.

Kafedraya ötən əsrin 20-ci illərində rəhbərlik etmiş B.Malinovskinin külü və böyrəkləri də Anomaliya bölməsində eksponat kimi nümayiş olunur. Həmsöhbətim bildirdi ki, Malinovski ölən zaman yandırılaraq külünün və böyrəklərinin saxlanılmasını vəsiyyət edib. Kül 1926-cı ildən buradadır. Bir insanın külünün çəkisi 800-1000 qr arasındadır.

### 1 mm ölçüsündə rüşeym

Sinir sistemləri bölməsində insan bədəninin sinir sistemləri, kəllələr, skeletlər nümayiş olunur. Bəzi kəllələr Şəki rayonunda qazıntı zamanı aşkar olunub, türk mənşəlidir. Həmçinin muzeydə yaş həddinə görə insan skeletləri də maraq doğurur. Uşaq skeletləri maket kimi görünsə də, əslində, tamamilə realdır. Bəzi skeletlərin sinəsinin qabarıq olması isə irsi, ya da valideynlərin pis vərdişlərin aludəçisi olduğunu göstərir ki, nəticədə də belə xəstə uşaqlar dünyaya gəlibdir.

Daxili orqanlar bölməsində isə adından bəlli olduğu kimi, insanın daxili orqanları nümayiş olunur. Bu muzeydə diqqətimizi daha çox 1 millimetr həcmində olan rüşeym çəkir. Rüşeymin inkişaf mərhələsi muzeydə eksponat kimi nümayiş edilir.

### Min illik mumiyalar

Sonda isə dayaq-hərəkət aparatlarının yerləşdiyi bölməyə baş çəkdik. Bu otaqda insan skeleti, kəllə sümükləri, mumiyalar var. Muzeydə sərgilənən kəllə skeletləri təxminən XI əsrə aiddir. Onların bir qismi Mingəçevir Su Elektrik Stansiyası tikilərkən köhnə qəbirlərdən çıxarılıb.

Burada saxlanılan mumiyaların mindən çox yaşının olduğunu öyrəndik. Bir qadın və iki kişi meyiti olan mumiyalar ildə bir dəfə xüsusi dərman və vasitələrlə təmizlənir. Hətta bir kişi meyitinin mindən çox yaşı olmasına baxmayaraq, ürəyi və böyrəkləri üzərində qalmaqda idi. Sovet dövründə tapılan mumiyaları eksponat kimi bir çox ölkələrə göndərirdilər. Lakin bu mumiyalar Azərbaycandan tapılanlardır. Ehtimal olunur ki, havasız yerdə öldükləri üçün kimyəvi yox, təbii yolla mumiyalanıblar.

Muzeydən tam fərqli düşüncələrlə ayrılırıq. İlk qənaətimiz isə odur ki, sağ ikən qurub yaradan, yeni-yeni kəşflərə imza atan insanın cansız bədəni də elm üçün əvəzsiz əyani vəsaitdir. Onun sayəsində sanki özümüzü görür və kəşf edirik...

***Səbinə MƏMMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 90 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Təkrar*

# Göyçay Rayon İcra Hakimiyyəti açıq tender elan edir

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**LOT 1.** Göyçay Rayon İcra Hakimiyyətinin sair xərclər üzrə işlərinin görülməsi

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderlə bağlı məlumat almaq istəyənlər əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Kamran İlqar oğlu Kərimov**
**Telefon: (051) 408-76-76**
**Ünvan: Göyçay Rayon İcra Hakimiyyəti**

Maraqlananlar 100 manat məbləğində iştirak haqqını ödədikdən sonra tenderin əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır. İddiaçılar iştirak haqqını aşağıdakı ünvana köçürməlidirlər.

**VÖEN: 6000043011**
**N/N: 2511331**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. BIK CREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıda göstərilən sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2 aprel 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 12 aprel 2018-ci il saat 17:00-a qədər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 13 aprel 2018-ci il saat 10:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Azərişıq"ASC müxtəlif növ elektrik malları və avadanlıqlarının satın alınması üzrə *açıq tenderə dəvət edir*

**Tender 3 (üç) LOT üzrə keçirilir:**

**LOT-1**
Müxtəlif kabellərin satın alınması - **400 manat**

**LOT-2**
Müxtəlif KTM-lərin satın alınması - **400 manat**

**LOT-3**
Yüksək gərginlikli elektrik yuvalarının, 6/10 kV-luq dəmir dayaqların və 1 ədəd generatorun satın alınması - 400 manat

**LOT-4**
"ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan mal-materialların satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Rövşən Əsgərov (telefon: 440-39-93, daxili (22-33))

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir *(www.tender.gov.az)*.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 aprel 2018-ci il, saat 15:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 aprel 2018-ci il, saat 15-00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanına Ümumi İşlər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 aprel 2018-ci il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Parlament komandalararası beynəlxalq futbol turnirinin finalçıları məlum olub

Azərbaycan Respublikası Milli Məclisinin 100 illik yubileyinə həsr olunan parlament komandalararası beynəlxalq futbol turnirinin finalçıları martın 10-da müəyyənləşib. AZƏRTAC xəbər verir ki, "İnter Arena"da keçirilən yarımfinal oyununda Türkiyə və Ukrayna komandaları qarşılaşıblar.

Komandalar hər biri 30 dəqiqədən ibarət iki hissədə mübarizə aparıblar.

Əvvəlcə hər iki ölkənin dövlət himni səsləndirilib.

Matça fəal başlayan Türkiyə komandası 1-ci dəqiqədə Ali Sarıkayanın qolu ilə hesabı açıb. Komandaların cəhdlərinə baxmayaraq, oyunun birinci hissəsi Türkiyə komandasının minimal üstünlüyü ilə başa çatıb. İkinci hissədə isə Ukrayna komandası fərqlənib. Matçın 34-cü dəqiqəsində Oleksey Polozok hesaba tarazlıq gətirib.

Oyunun əsas vaxtı 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Qalib əlavə olunmuş vaxtda müəyyənləşib. Oyunun 68-ci dəqiqəsində Ukrayna komandası Artyom Artyomenkonun qolu ilə hesabda önə çıxıb. Üç dəqiqə sonra türkiyəli Kazım Kırçı adını tabloya yazdırıb - 2:2. Qarşılaşmanın 73-cü dəqiqəsində ukraynalı Yuri Makedon baxımlı qolla fərqlənib. Türkiyə komandasının qapısına təyin olunmuş 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Oleq Osuxovski Ukrayna komandasının qələbəsini rəsmiləşdirib.

Beləliklə, görüşdə 4:2 hesabı ilə qalib gələn Ukrayna komandası turnirin finalına yüksəlib.

Martın 11-də keçiriləcək final oyununda Azərbaycan və Ukrayna komandaları üz-üzə gələcəklər.

# Simulyatorda "Formula-1" çempionatının Quba mərhələsinin qalibi müəyyənləşib

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) və Azərbaycan Avtomobil Federasiyasının (AAF) birgə təşkilatçılığı ilə avtoidman üzrə maarifləndirmə ayı çərçivəsində simulyatorda "Formula-1" (F1) çempionatının Quba mərhələsinin qalibi müəyyənləşib. AZƏRTAC xəbər verir ki, martın 10-da "Sənin sürət formulan" şüarı altında keçirilən yarışda Quba şəhərindəki tam orta məktəblərin yuxarı sinif şagirdləri mübarizə aparıblar. Yarışda iştirak edənlər arasında şəhər 7 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Fərid İslamovun nəticəsi hamıdan irəlidə olub. O, simulyatorda Bakı şəhər halqasını 1 dəqiqə 49,083 saniyəyə dövrə vuraraq iştirakçılar arasında ən yaxşı göstəriciyə imza atıb. Bakıda keçiriləcək final mərhələsində yarışmağa vəsiqə qazanan F.İslamova sertifikat təqdim edilib.

Yarışın qalibi olan F.İslamov bildirib ki, çempionata qatılanda qalib gəlməyi və final mərhələsində iştirak etməyi qarşısına məqsəd qoyub. "Yarışdan qabaq məşqlərdə göstərdiyim nəticə çox yüksək idi. Bundan qabaq digər bölgələrdə əldə olunan nəticələrlə müqayisə etdikdə qalib gələ biləcəyimi təxmin edirdim. Elə də oldu. 200 şagird arasında birinci olduğum üçün çox xoşbəxtəm. Amma bununla kifayətlənmək istəmirəm. Final mərhələsində də qalib olmaq istəyirəm", - deyə Fərid müsahibəsində bildirib.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin əməkdaşı Rüstəm Hacıyev müsahibəsində bildirib ki, layihənin həyata keçirilməsində əsas məqsəd Azərbaycanın bölgələrində gənclər, xüsusilə orta məktəblərin yuxarı sinif şagirdləri arasında "Formula-1" yarışları, yol hərəkəti təhlükəsizliyi və avtomobil idmanı haqqında məlumatlılığı artırmaqdır. "İstəyirik ki, bu yarış həyəcanından, festival abhavasından regionlar da kənarda qalmasın. Bu çempionat vasitəsilə region gəncləri arasında yeni vərdişlər formalaşdırmağa, avtomobil idmanına, xüsusilə də "Formula-1" yarışlarına sevgi və maraq yaratmağa çalışırıq. Ümumilikdə 6 bölgəni əhatə edən çempionatın ilk mərhələsində hər region üzrə bir qalib seçilir. Qaliblər Novruz bayramı ərəfəsində Bakıda keçiriləcək final mərhələsində yarışacaqlar. Yarışın sonunda qalibə və final mərhələsinin digər iştirakçılarına sertifikat və hədiyyələr təqdim olunacaq", - deyə Rüstəm Hacıyev qeyd edib.

Yarışdan bir gün qabaq "Formula-1" simulyator oyunlarında iştirak edən şagirdlər üçün Quba şəhərində ictimaiyyətə açıq yol hərəkəti qaydaları ilə bağlı təlim təşkil olunub. Azərbaycan Avtomobil Federasiyası tərəfindən keçirilən "Yol hərəkəti qaydalarını öyrənək" adlı təlimin əvvəlində mövzu ilə bağlı videoçarx göstərilib. Azərbaycan Texniki Universitetinin müəllimi, Azərbaycan Avtomobil Federasiyasının təlimçisi Sahib Əsgərov məktəblilərə yol hərəkətinin təhlükəsizliyi, o cümlədən yol nişanları, işıqfor, piyada keçidi, təhlükəsizlik kəmərindən istifadə və digər zəruri məsələlər barədə ətraflı məlumat verib. Təlimin sonunda şagirdlərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, Quba bölgələrdə "Formula-1" simulyator oyunlarının keçirildiyi sonuncu rayon olub. Çempionatın mərhələləri indiyədək Lənkəranda, Şirvanda, Mingəçevirdə və Qaxda təşkil edilib.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Şri-Lankada müsəlmanlara qarşı çıxışların təhqiqinə başlandı




Şri-Lanka Prezidenti Maytripala Sirisena ölkənin mərkəzi rayonlarında baş vermiş antimüsəlman çıxışlarının səbəblərinin təhqiqinə başlandığını bildirmişdir. Bu barədə Qərb KİV-i xəbər verir.

Məlumata görə, iğtişaşlar nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Bundan əlavə, müsəlmanlara məxsus 200-dən çox ev və ticarət obyekti dağıdılmışdır. Çıxışlar zamanı həmçinin 11 məscid binası zərər çəkmişdir.

Xatırladaq ki, ötən çərşənbə axşamı dini icmalar arasında bir neçə gün davam edən toqquşmalardan sonra Şri-Lankada fövqəladə vəziyyət elan edilmişdir. Bundan əvvəl isə Kandi şəhərində komendant saatı tətbiq olunmuşdur. Yerli polisin məlumatına əsasən, vəziyyət nəzarət altına alınmış və dünən səhər şəhərdə komendant saatı ləğv edilmişdir.

## NATO Ukraynaya aspirant ölkə statusu verdi



Şimali Atlantika alyansı Ukraynanın təşkilatın tamhüquqlu üzvü olmaq təşəbbüsünü tanıyır. Bu barədə NATO-nun rəsmi saytında məlumat verilmişdir.

Məlumatda deyilir ki, NATO-nun qapıları üzvlük öhdəliklərini üzərinə götürməyə və avroatlantik regionda təhlükəsizliyə kömək etməyə qadir olan hər bir Avropa ölkəsinin üzünə açıqdır. 1949-cu ildən bəri NATO-ya üzvlük yeddi genişlənmə mərhələsi keçməklə 12 ölkədən 29 ölkəyədək artmışdır. Hazırda dörd tərəfdaş ölkə - Bosniya və Herseqovina, Gürcüstan, Makedoniya və Ukrayna NATO-ya daxil olmaq istəyini bildirmişdir.

Qeyd olunur ki, aspirant ölkələr NATO-ya üzv olmaq üçün öz təşəbbüslərini bəyan etmiş dövlətlərdir. Aspirant ölkələr potensial üzvlüyə hazırlıq üçün fəaliyyət planının hazırlanmasında iştirak etməyə dəvət oluna bilər. Həmin tədbirdə iştirak təşkilata üzvlüyə təminat vermir, lakin bu, əsas hazırlıq mexanizmidir.

## Kabildə terror aktı törədildi



Əfqanıstanın paytaxtı Kabildə intiharçı-terrorçunun özünü partlatması nəticəsində azı 10 nəfər həlak olmuş, 20 nəfərdən çox adam yaralanmışdır. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Hadisə şiə məscidində baş vermişdir. Məlumata görə, intiharçı-terrorçu məsciddə əfqanıstanlı şiələrin sabiq lideri Abdulla Əli Məzarinin ölümünün ildönümünə həsr olunmuş mərasimə daxil olmağa cəhd edərkən asayiş keşikçiləri tərəfindən saxlanmış və həmin an özünü partlatmışdır.

Terror aktına görə məsuliyyəti İŞİD qruplaşması üzərinə götürmüşdür.

## Kaliforniyada veteranlar evində üç girov öldürüldü




ABŞ-ın Kaliforniya ştatının Yontvil şəhərində veteranlar evində üç qadın girovun, habelə müəssisəyə hücum etmiş silahlı kişinin meyitləri aşkar edilmişdir. Bu barədə yerli hakimiyyət orqanlarına istinadən "Assoşieyted Press" agentliyi xəbər verir.

Cinayətkar əvvəlcə daha çox adamı girov götürmüş, lakin sonradan bəzilərini azadlığa buraxmışdı. Təxminən səkkiz saat ərzində polis silahlı şəxslə əlaqə yaradıb onun tələblərini öyrənə bilməmişdi.

Cinayətkarın adı hələ ki açıqlanmır. Bəzi məlumatlara görə, söhbət İraq və Əfqanıstan müharibələrinin 36 yaşlı kişi iştirakçısından gedir. O, emosional zədə aldığından müharibə veteranlarının bərpası proqramında iştirak edirmiş. Kişi iki həftə əvvəl evə buraxılmışdı.

Ölənlər bərpa mərkəzinin qadın işçiləridir.

Yontvildəki veteranlar mərkəzi ABŞ-da ən iri müəssisələrdən biridir. Mərkəzdə İkinci Dünya müharibəsinin, habelə Vyetnam və İraq müharibələrinin 1100-dək iştirakçısı yaşayır.

## Almaniyanın yeni hökumətinin tərkibi məlum oldu



Almaniya Sosial-Demokrat Partiyası (ASDP) yeni "böyük koalisiya" hökumətində sonuncu iki naziri müəyyənləşdirmişdir. Ailə, ahıllar, qadınlar və gənclərin işləri üzrə sabiq nazir Katarina Barley ədliyyə naziri təyin olunmuşdur. Partiyanın keçmiş baş katibi Hubertus Hayl əmək naziri olmuşdur. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

ASDP-dən olan daha dörd nazir bir gün əvvəl məlum olmuşdur. Keçmiş ədliyyə naziri Hayko Mas xarici işlər naziri vəzifəsini tutacaq. Hamburqun birinci burqomistri Holaf Şolts Maliyyə Nazirliyinə başçılıq edəcək. Svenya Şults ətraf mühitin mühafizəsi naziri olacaq. Ailə, ahıllar, qadınlar və gənclərin işləri üzrə nazir vəzifəsini Fransiska Giffay tutacaq.

ASDP ilə Xristian-Demokrat İttifaqı (XDİ) arasında koalisiya razılaşmasına əsasən, hər partiya altı nazir postuna yiyələnmişdir. Halbuki bundestaqa seçkilərdə xristian-demokratlar sosial-demokratlardan xeyli çox səs toplamışlar.

XDİ-ni təmsil edən nazirlər Peter Altmayer (iqtisadiyyat), Ursula fon der Lyayen (müdafiə), Yens Şpan (səhiyyə), Anya Karliçek (təhsil və elmi tədqiqatlar), Yuliya Klökner (kənd təsərrüfatı) və Helge Braundur (federal kanslerin idarəsinin başçısı).

Beləliklə, yeni "böyük koalisiya"da gender bərabərliyi prinsipi əsasında ASDP və XDİ-dən hərəyə üç kişi və üç qadın nazir təyin edilmişdir. Daha üç naziri Xristian-Sosial İttifaqı təyin etmişdir. Horst Zeyehofer Daxili İşlər Nazirliyinə başçılıq edəcək. Andreas Şoyer nəqliyyat naziri, Doroteya Ber isə rəqəmli texnologiyalar üzrə dövlət naziri olacaqlar.

Xatırladaq ki, AFR Prezidenti Frank-Valter Ştaynmayer martın 5-də Angela Merkelə federal kansler postunu təklif etmişdir.

Almaniya hökuməti başçısının seçkiləri martın 14-də bundestaqda keçiriləcək.

# Yaz fəsli Azərbaycana martın 20-si saat 20:15-də qədəm qoyacaq



Yaz fəsli Azərbaycana martın 20-si saat 20:15:30-da gələcək.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Xıdır Mikayılov AZƏRTAC-a bildirib ki, baharın gəlişi zamanı gecə-gündüz bərabərləşir: "Həmin vaxt Günəş öz orbiti üzrə hərəkət edərək göy ekvatorunu kəsir. Yəni cənub yarımkürəsindən şimal yarımkürəsinə keçir. Bu nöqtəyə də yaz bərabərliyi nöqtəsi deyilir və Günəş bu nöqtədə olarkən gecə ilə gündüzün uzunluğu bərabərləşir. Bu zaman da yaz fəsli gəlir".

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Abşeron Rayon Məhkəməsinin sədri Elçin Kazımova atası

**MƏMMƏD KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri Elçin Kazımova atası

**MƏMMƏD KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8916
Sifariş 657